HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 05 (796) ■ 3 fevral 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycanda gənclər siyasəti uğurla həyata keçirilir



Yanvarın 29-da Prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb.

Bir neçə gündən sonra Birinci Gənclər Forumunun 20-ci ildönümünün qeyd olunacağını deyən Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə keçirilən ilk Forumun Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadığını diqqətə çatdırıb. Azərbaycanın müstəqillik tarixindən danışan dövlətimizin başçısı ilk illərin ölkəmiz və xalqımız üçün ağır keçdiyini, Azərbaycana qarşı ermənilərin torpaq iddiaları ilə çıxış etdiyini, sovet rəhbərliyinin Bakıda cinayət törədərək günahsız insanları qətlə yetirdiyini deyib. Prezident İlham Əliyev bildirib ki, məhz o dövrdə Heydər Əliyev Moskvada sovet rəhbərliyinin cinayətkar əməllərini pislədi. Bu, nadir hadisə olmaqla Heydər Əliyevin cəsarətli addımı idi. Sonradan ulu öndərin Bakıya, buradan da Naxçıvana getməsi muxtar respublikanı ermənilərin işğalçılıq siyasətindən xilas etdi. «Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır», - deyən dövlətimizin başçısı əminliklə söyləyib ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

1990-cı illərin əvvəllərindəki problemlərin əsas hissəsini hakimiyyət böhranı ilə əlaqələndirən Prezident İlham Əliyev deyib ki, o dövrdə AXC-Müsavat hakimiyyəti xalq üçün böyük bəla idi. Zorla hakimiyyətə yiyələnən bu qüvvələr torpaqlarımızın bir hissəsinin işğalında rol oynayıblar. Bu şəxslərin hakimiyyətə gəldikdən sonra bir-birləri ilə mübarizə apardıqlarını, vəzifədən getdikdən sonra isə bəzilərinin qaçıb gizləndiyini deyən Prezident İlham Əliyev 1993-cü ildən Heydər Əliyevin ölkədəki vəziyyəti normallaşdırdığını bildirib. «Heydər Əliyevin xidmətləri sayəsində «Əsrin müqaviləsi»nin imzalanması bir çox xarici qüvvələri hərəkətə gətirdi, onlar Azərbaycanda dövlət çevrilişlərinə cəhd etdilər, amma ulu öndər xalqın köməyi ilə vəziyyəti aradan qaldırdı», - deyən Prezident İlham Əliyev bildirib ki, indi əsas məqsəd ölkəmizdəki inkişafın dayanıqlı olmasını təmin etməkdir. Bu məsələdə gənclərin fəaliyyəti, onların baxışları həlledici rola malikdir.

«Biz Azərbaycanda güclü, özünəgüvənən dövlət qururuq və bu dövlət əbədi yaşamalıdır», - deyən Prezident İlham Əliyev son 20 ili inkişaf və sabitlik dövrü kimi xarakterizə edib, Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasında təmsil olunduğunu, mühüm enerji layihələrini icra etdiyini, kosmik ölkəyə çevrildiyini, iqtisadi şaxələndirilmənin aparıldığını, elmin və təhsilin inkişafı ilə bağlı mühüm addımların atıldığını, güclü ordunun və güclü sosial siyasətin qurulduğunu diqqətə çatdırıb. Hazırda iqtisadi sahədə ciddi islahatların aparılmasına böyük ehtiyac olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, gələcək illər innovasiya dövrü olacaq və əsas sözü texnologiyalar deyəcək. Buna görə də neftdən asılılıq tamamilə aradan qaldırılmalı, gənclər də cəmiyyətin bütün işlərində fəal rol oynamalıdırlar.

Sonra Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup gəncə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomları təqdim olunub.

Görüşdə Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədri Nurəddin Mehdiyev, «ASAN Könüllüləri» Gənclər Təşkilatı İctimai Birliyinin sədri Fərid Sadıxlı, «Tələbələrin İqtisadiyyat və Menecmentlik üzrə Assosiasiyası» İctimai Birliyinin sədri Məryəm Məcidova, «BMT-nin modeli» layihəsinin əlaqələndiricisi Elmira Məmmədova, gənc sahibkar, Davos İqtisadi Forumunun «Global Shapers» təşkilatının üzvü Müşfiq Həsənov, «Gəncə 2016 - Avropa gənclər paytaxtı» İctimai Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Aysun Zeynalova, Prezident yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev, Heydər Əliyev Mərkəzinin baş mütəxəssisi, hüquq üzrə fəlsəfə doktoru Zafiq Xəlilov öz fikir və mülahizələrini bildiriblər, müxtəlif təkliflərlə çıxış ediblər.

Gəncləri diqqətlə dinləyən Prezident İlham Əliyev onların irəli sürdükləri faydalı rəy və təkliflərinin nəzərə alınacağını, bundan sonra da ölkədə dövlət-gənclər siyasətinin davamlı inkişafına dəstək veriləcəyini vurğulayıb. Azərbaycanın, BMT başda olmaqla, bütün beynəlxalq təşkilatlarla hərtərəfli əlaqələrə malik olduğunu deyən dövlət başçısı gənclərin həmin təşkilatlarda təmsilçiliyini yüksək qiymətləndirdiyini diqqətə çatdırıb, yeni iqtisadi şəraitdə həyata keçiriləcək geniş özəlləşdirmə proqramında gənc sahibkarların fəal iştirakının vacibliyini vurğulayıb.

# Ölkəmizin ixrac potensialının daha da artırılması mümkün olacaq

## *Bakıətrafı qəsəbələr üzrə verilmiş kreditlər hesabına 26 mindən çox yeni iş yeri yaradılıb*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Bakının Qaradağ rayonunda «Mətanət-A» şirkətinin Yeni Ağdağ gips zavodunun açılışında iştirak edib.

Əvvəlcə iqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Bakıətrafı qəsəbələr üzrə ödənilən güzəştli kreditlər barədə məlumat verib. Qeyd edilib ki, bu kreditlər hesabına 26 mindən çox yeni iş yeri yaradılıb. Qaradağ rayonu üzrə isə 100 sahibkara 78 milyon manat güzəştli kredit verilib və bu kreditlər hesabına 3700-dən çox yeni iş yeri açılıb.

«Mətanət-A» şirkətinin rəhbəri Elxan Bəşirov şirkət barədə dövləti başçısına məlumat verərək bildirib ki, müəssisənin tərkibinə 5 zavod - quru inşaat qarışıqları zavodu (illik istehsal gücü 100 min ton), boya zavodu (5 min ton), beton qatqıları zavodu (5 min ton), gips hörgü bloku zavodu (250 min kvadratmetr) və Ağdağ gips zavodu (250 min ton) daxildir. Bu zavodlarda 800-dən çox iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 600 manatdır.

Şirkətin 6-cı müəssisəsi olan Yeni Ağdağ gips zavodu 4,4 hektar sahədə yaradılıb. Müəssisədə yüksək keyfiyyətli məhsul əldə etmək üçün bütün şərait yaradılıb. Zavodda müasir və qabaqcıl texnologiyaların tətbiqi məhsulun maya dəyərinin aşağı düşməsinə, yüksək keyfiyyətin əldə edilməsinə və idxalın əvəz olunmasına imkan yaradır. Zavodun Goranboyda gips və Daşkəsəndə kalsid karxanaları var. Müəssisənin illik istehsal gücü 400 min ton təşkil edir. Bu zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit verilib. Ümumilikdə isə «Mətanət-A» şirkətinə Fond tərəfindən 2,5 milyon manat güzəştli kredit ayrılıb.




Dövlətimizin başçısı Yeni Ağdağ gips zavodunda istehsal ediləcək məhsullara baxıb. Bu məhsulların daxili tələbatın ödənilməsi ilə yanaşı, 50 faizinin Rusiya, Qazaxıstan, Gürcüstan, Türkmənistan, İran və Ukraynaya ixrac olunması nəzərdə tutulur.

Prezident İlham Əliyev «Mətanət-A» şirkətinin digər zavodlarında istehsal edilən məhsullarla da tanış olub. Bildirilib ki, şirkətin zavodlarında 1000-dən artıq çeşiddə məhsul buraxılır. Bu məhsullar satışa 200-dən artıq ticarət markası ilə çıxarılır. Şirkət bir neçə patentləşdirilmiş ixtiranın müəllifidir. 2000-ci ildə yaradılan bu şirkət fəaliyyətində «daha aşağı qiymətə, daha keyfiyyətli məhsul əldə etmək» devizini əsas meyar seçib. Şirkət məhsullarını İran və MDB ölkələrinə ixrac edir. Zavodlarda nano və smart texnologiyalar tətbiq edilir ki, bu da məhsulun yüksək keyfiyyətli olmasında mühüm rol oynayır. Ekoloji təmizliyi ilə də seçilən məhsullar arasında dünyanın əksər ölkələrində patentləşdirilmiş fasadda aqlay daşını yaradan qum qarışıq - FAS-NATURAL məhsulu da var. Su hopmayan bu məhsulun özəlliyi fasadın yükünü 11 dəfəyədək azaltması və şaxtaya tam davamlı olmasıdır.

Dövlətimizin başçısı Yeni Ağdağ gips zavodunu işə salıb və kollektivin üzvləri ilə görüşüb söhbət edib, onların problemləri ilə maraqlanıb.

Sonra Prezident İlham Əliyev zavodun fəaliyyəti ilə tanış olub.

# Azərbaycan Prezidenti İlham Əliyevin BƏƏ-yə rəsmi səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) rəsmi səfərə gəlib. Rəsmi qarşılanma mərasimindən sonra ölkəmizin başçısının Abu Dabinin Vəliəhdi, Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə geniş tərkibdə görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edilib, siyasi, iqtisadi, ticarət, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub. Turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. Prezident İlham Əliyev Azərbaycandan Birləşmiş Ərəb Əmirliklərinə və bu ölkədən Azərbaycana gələn turistlərin sayının artmasından məmnunluğunu ifadə edib.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirə aparılıb. Dövlətimizin başçısı məlumat verib ki, uzun illərdir Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, bunun da nəticəsində 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Prezident İlham Əliyev bu münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayıb.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə BMT Baş Məclisində münaqişə ilə bağlı qətnamənin qəbul edilməsində dəstəyə görə minnətdarlığını bildirib, Azərbaycanın da öz növbəsində BMT və digər beynəlxalq təşkilatlarda BƏƏ-nin mövqeyini dəstəklədiyini qeyd edib. Görüşdə regional təhlükəsizlik məsələləri müzakirə edilib, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Dövlətimizin başçısı Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı Azərbaycana rəsmi səfərə dəvət edib.

Sonra Prezident İlham Əliyev Abu Dabidəki Şeyx Zayed məscidi kompleksini ziyarət edib.

Birləşmiş Ərəb Əmirliklərinə səfəri çərçivəsində dövlətimizin başçısı fevralın 1-də Abu Dabidən Dubaya gəlib və şəhərdəki məşhur «Bürc-Xəlifə» binası ilə tanış olub. Prezident İlham Əliyevə məlumat verilib ki, dünyanın ən böyük göydələni olan «Bürc-Xəlifə»nin tikintisi 2004-2009-cu illərdə həyata keçirilib. 2010-cu ildə binanın möhtəşəm açılışı olub. Əvvəllər «Bürc-Dubay» adlandırılan 165 mərtəbəli bu möhtəşəm tikilinin hündürlüyü 828 metrdir. Binanın 150-ci mərtəbəsindən sonrakı hissələrinin tikintisində polad konstruksiyalardan istifadə olunub. Bununla da «Bürc-Xəlifə» dünyada ilk dəfə beton kütlə üzərində polad konstruksiyalardan istifadə olunan tikili kimi tarixə düşüb.

Dünya memarlığının nadir incilərindən olan «Bürc-Xəlifə»nin özəllikləri bununla bitmir. Əsas diqqət tikinti zamanı küləkdən qorunmaya yönəldilib. Dünyada ən hündürə qalxan və ən sürətli liftlər də bu binada işləyir. «Bürc-Xəlifə»nin 158-ci mərtəbəsində dünyanın ən yüksəklikdə yerləşən məscidi, 76-cı mərtəbəsində ən hündür üzgüçülük hovuzu və 122-ci mərtəbəsində restoran fəaliyyət göstərir. Kompleksin daxilində otellər, evlər, ofislər və ticarət mərkəzləri yerləşir. Binanın daxili məxsusi olaraq «Bürc-Xəlifə» üçün hazırlanmış ətirlərlə təravətləndirilir. Göydələnin şüşələri günəş şüalarının qarşısını alaraq daxildə optimal temperatur rejiminin saxlanmasına şərait yaradır. «Bürc-Xəlifə» öz möhtəşəmliyi ilə Dubayın yeni işgüzar hissəsinin rəmzi sayılır.

## BU NÖMRƏMİZDƏ

ŞƏMKİR RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ 2

VERGİ ÖDƏYİCİLƏRİNƏ GÖSTƏRİLƏN XİDMƏTLƏR TƏKMİLLƏŞDİRİLİR 3

ƏMLAKIN SATIŞINDAN VERGİ 4

LİSENZİYANIN YENİDƏN RƏSMİLƏŞDİRİLMƏSİ VƏ BƏRPASINDA DÖVLƏT RÜSUMUNUN LƏĞVİ 5

# Şəmkir rayon ictimaiyyətinin nümayəndələri ilə görüş





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda verdiyi tövsiyələrə uyğun olaraq, vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov fevralın 1-də Şəmkir şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Heydər Əliyev Mərkəzinin binasında keçirilən görüşdə yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların rəhbərləri, sahibkarlar, rayon ziyalıları iştirak ediblər.

Görüşdə çıxış edən vergilər naziri dünyada baş verən proseslər, enerji və maliyyə bazarlarında yaranmış iqtisadi vəziyyət, bunun ölkəmizə təsirləri barədə danışıb, Prezident İlham Əliyevin ölkənin büdcə gəlirlərinin neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı işlər və atdığı qətiyyətli addımlar nəticəsində bütün dünyanı bürümüş qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsirinin minimallaşdırılmasına nail olunduğunu vurğulayıb.

Fazil Məmmədov iqtisadi inkişaf dinamikasının saxlanması, yerli istehsalın dəstəklənməsi, sahibkarlığa geniş dövlət dəstəyinin göstərilməsi, vətəndaşların sosial rifahının yaxşılaşdırılması, əhalinin yaranmış yeni iqtisadi situasiyadan zərər çəkməməsi üçün Azərbaycan hökuməti tərəfindən atılan addımlar barədə görüş iştirakçılarına geniş məlumat verərək, mövcud iqtisadi şəraitdə iş yerlərinin ixtisarına yol verilməməsinin və yeni iş yerlərinin yaradılmasının qarşıda duran ən mühüm vəzifələrdən olduğunu bildirib.

Açıq dialoq şəraitində keçən görüşdə F.Məmmədov ölkə Prezidenti tərəfindən qarşıdakı dövr üçün müəyyənləşdirilmiş strateji istiqamətlər barədə məlumat verib. Bildirilib ki, 2016-cı ildə iqtisadi şaxələndirmə, regional inkişaf, qeyri-neft sektorunun inkişafı prioritet olacaqdır. Azərbaycan hökumətinin məqsədi ölkədə sahibkarlıq fəaliyyətinin canlanmasına, qeyri-neft sektorunun ümumi daxili məhsulda və büdcə daxilolmalarında payının artırılmasına nail olmaqdır. Bu mənada, 2016-cı ildə regionlarda sahibkarlığın inkişafına xüsusi önəm veriləcəkdir.

Fazil Məmmədov qeyd edib ki, yerlərdə sahibkarlığın vüsət qazanması üçün dövlət tərəfindən bütün mümkün addımlar atılır. Biznes mühitinin yaxşılaşdırılması, sahibkarların dəstəklənməsi məqsədilə vergi qanunvericiliyinə ciddi dəyişikliklər edilərək onlara bir sıra vergi güzəştləri verilib, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı azaldılıb, sahibkarlıq subyektlərində yoxlamaların əksəriyyəti dayandırılıb. Dövlət başçısı tərəfindən yeni qanunvericlik sənədlərinin təsdiq edilməsi ölkəmizdə investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədi daşıyır. Sahibkarların diqqətinə çatdırılıb ki, onlar da dövlətin bu dəstəyindən faydalanaraq, məhsul istehsalının artırılmasına nail olmalıdırlar.

Fazil Məmmədov yerli sahibkarlara müraciətlə onları öz fəaliyyətlərini genişləndirməyə, rayonun potensialından maksimum istifadə etməyə, yerli istehsalla bağlı layihələrə sərmayə yatırmağa çağırıb. Qeyd olunub ki, Şəmkir rayonunda kənd təsərrüfatının, turizmin sürətlə inkişaf etməsi üçün böyük potensial vardır. Qeyri-neft sənayesinin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdıran nazir Şəmkir rayonu ərazisində də sənaye zonasının yaradılması imkanlarının nəzərdən keçirilməli olduğunu vurğulayıb.

Diqqəti son illərdə rayonda açılmış yeni müəssisələrə yönəldən nazir Şəmkirçay su anbarının ölkəmizin qeyri-neft sektorunda həyata keçirilən ən böyük investisiya layihələrindən biri olduğunu qeyd edib. Bu layihənin reallaşdırılması nəticəsində Gəncə, Şəmkir və Samux şəhərlərinə keyfiyyətli içməli suyun verilməsi təmin edilib, Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarında on minlərlə hektar ərazinin su təminatı yaxşılaşdırılıb. Şəmkirdə yeni innovativ texnologiyalara əsaslanan müasir tipli sahibkarlıq subyektlərinin, o cümlədən gələcəkdə 3 min nəfərədək işçinin çalışacağı nəzərdə tutulan Şəmkir Aqroparkının, müasir texnoloji avadanlıqlarla təchiz olunaraq artıq istifadəyə verilmiş «Zəyəm Texnologiyalar Parkı»nın və çörək zavodu kimi obyektlərin kənd təsərrüfatının inkişafında, əhalinin maddi rifahının yaxşılaşmasında, xüsusilə də bölgədə yeni iş yerlərinin açılmasında əhəmiyyətli rol oynadığı qeyd edilib. Bildirilib ki, ötən il rayonda 3337 iş yeri, o cümlədən 587 daimi iş yeri açılıb.

Ölkə başçısının dövlət büdcəsindən dotasiya alan rayonların sayının azaldılması ilə bağlı dediklərinə toxunan nazir Şəmkir rayonunda da bu istiqamətdə ciddi addımlar atılmasının vacibliyini vurğulayıb. Bildirib ki, münbit torpağı, suvarma təyinatlı su mənbələri, zəhmətkeş insanları, bacarıqlı sahibkarları olan Şəmkir üçün bu, kifayət qədər real vəzifədir və dövlət büdcəsindən rayona ayrılan vəsaitin məbləğini azaltmaq, gələcəkdə isə tamamilə dotasiyasız işləmək üçün təsirli tədbirlər görülməlidir.

Fazil Məmmədov yerli icra hakimiyyətini və bələdiyyələri sahibkarlarla partnyorluq münasibətlərini dərinləşdirməyə, sahibkarlara hərtərəfli yardım göstərməyə, sahibkarları isə öz növbəsində yeni iş yerləri yaratmağa, istehsal sahələrini genişləndirməyə, bütün bunlarla yanaşı, fəaliyyət göstərdikləri bölgələrdə öz sosial məsuliyyətlərini hiss etməyə çağırıb.

Görüşdə çıxış edən sahibkarlar və ictimaiyyət nümayəndələri göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər, Şəmkir rayonunda yeni istehsal sahələrinin və iş yerlərinin yaradılmasında, kredit resurslarının ayrılmasında, kənd təsərrüfatı məhsullarının satışı və xarici bazarlara çıxarılmasında sahibkarlara kömək göstərilməsi ilə bağlı təkliflərlə çıxış ediblər.

Dəllər qəsəbəsindən olan sahibkar Etibar Əliyev heyvandarlığın və quşçuluğun daha intensiv inkişaf etdirilməsi üçün rayonda yem zavodunun tikintisinə ehtiyac olduğunu, bu məqsədlə hazırlanmış layihənin reallaşdırılmasına kömək göstərilməsini xahiş edib. Kür qəsəbə sakini Şahin Pənahov qəsəbədə yaşayan qadınları işlə təmin etmək üçün tikiş və xalça sexinin yaradılmasının zəruriliyini, bunun üçün dəstəyə ehtiyac olduğunu vurğulayıb. Düyərli kənd sakini Rafiq Cəfərov isə Zəyəm çayının suyunun istifadə olunmasında yaranmış problemlərdən danışaraq, əhalinin su təchizatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması üçün yeni boru xətlərinin çəkilməsinin vacibliyini diqqətə çatdıraraq, bununla bağlı dövlət qurumlarından kömək gözlədiklərini qeyd edib.

Vergilər naziri Fazil Məmmədov bütün müraciət və təkliflərin nəzərə alınacağını bildirib.

# Dünya Bankının nümayəndə heyəti Vergilər Nazirliyində



Fevral ayının 1-də Vergilər Nazirliyində Dünya Bankının Cənubi Qafqaz üzrə nümayəndə heyəti ilə görüş keçirilib. Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov Azərbaycanda mövcud iqtisadi vəziyyət və inkişaf göstəriciləri, dünyada baş verən kataklizmlərə baxmayaraq, 2015-ci ildə aparılan uğurlu iqtisadi siyasət, ölkəmizdə makroiqtisadi vəziyyətin sabitliyi, ölkə iqtisadiyyatının xarici təsirlərə dayanıqlılığı, vergi sistemində aparılan modernləşmə prosesi, texnoloji imkanların genişləndirilməsi, vergi inzibatçılığı və elektron hökumət quruculuğu istiqamətində əldə edilən nailiyyətlər barədə qonaqlara məlumat verib.

Dünya Bankının Cənubi Qafqaz üzrə proqram rəhbəri Raşmi Şankar yeni iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin və ixrac imkanlarının artırılması istiqamətində hökumətin atdığı addımları, vergi sisteminin modernləşdirilməsi və innovasiyaların dəstəklənməsində vergilərin stimullaşdırıcı rolunun artırılması sahəsində Vergilər Nazirliyinin həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirib.

Görüşdə vergi siyasəti, vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində həyata keçirilən son tədbirlər, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və növbəti islahatlarla bağlı fikir mübadiləsi aparılıb, missiya üzvlərinin sualları cavablandırılıb.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ildə turistlərin gəlişindən Azərbaycan büdcəsinə **1 milyard** manata yaxın vəsait daxil olub ki, bu da ÜDM-in **4%**-ni təşkil edir.
- Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ **730 milyon 172 min 420** manatdan çoxdur.
- Ötən il Azərbaycanda toplanmış sığorta haqlarının **26,3%**-i və yaxud **116,5 milyon** manatı həyat sığortasının payına düşüb.

# Təcrübə mübadiləsi səmərəli əməkdaşlığa şərait yaradır

Bakı Biznes Mərkəzində «Kənd təsərrüfatının perspektiv sahələrinin inkişafı üzrə Türkiyə-Azərbaycan təcrübəsi» mövzusunda əməkdaşlıq konfransı keçirilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin dəstəyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Türkiyə Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) təşkilatçılığı ilə keçirilmiş tədbirdə üzüm, pambıq, qarğıdalı, tütün və fındıq kimi məhsulların istehsalında və emalında yeni texnologiyaların tətbiqi, bu sahələrin inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələr, eləcə də maliyyə institutlarına çıxış üzrə Türkiyə ilə Azərbaycan arasında təcrübə mübadiləsi məsələləri müzakirə olunmuşdur. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən 150-dən çox sahibkar iştirak etmişdir.

ASK-nın prezidenti Məmməd Musayev konfransı açaraq ölkəmizdə aqrar sahənin qeyri-neft sektorunun prioritet sahələrindən olduğunu, konfederasiyanın da bu sahədə fəaliyyət göstərən iş adamları və dövlət qurumları arasında işgüzar əlaqələrin təşkilində, digər ölkələrin təcrübəsinin öyrənilməsində yaxından iştirak etdiyini bildirmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Aqrar siyasət şöbəsinin müdiri Azər Əmiraslanov ölkə başçısının rəhbərliyi ilə ölkəmizdə reallaşdırılan aqrar siyasət və bu siyasətin prioritetləri, kənd təsərrüfatının inkişafına dövlət dəstəyi mexanizmləri barədə məlumat vermiş, bu işin bundan sonra da davam etdiriləcəyini vurğulamışdır.

İqtisadiyyat naziri Şahin Mustafayev çıxışında qeyd etmişdir ki, dünyada və regionda yaşanan mürəkkəb geosiyasi proseslər, enerji bazarında davam edən qeyri-sabitlik, bir çox ölkələrin ciddi iqtisadi və sosial problemlərlə üzləşməsi Azərbaycanın iqtisadi dayanıqlığına yönəlmiş tədbirlərin daha intensiv şəkildə həyata keçirilməsini zəruri edir. «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev tərəfindən qeyri-neft sektorunun, xüsusilə də kənd təsərrüfatının inkişafı üçün mühüm tapşırıqların verildiyini vurğulayan nazir bu tapşırıqların icrası istiqamətində görülən işlərdən danışmışdır. Qeyri-neft sektorunun inkişafı istiqamətində atılan addımlar, eləcə də yeni iqtisadi şəraitdə aqrar sahənin, o cümlədən ənənəvi sahələrin, xüsusilə də pambıqçılığın inkişafı üçün tətbiq olunacaq yeni stimullaşdırma mexanizmləri diqqətə çatdırılmışdır. Bildirilmişdir ki, pambıqçılıq müəssisələrinə daha çox güzəştli kreditlər veriləcək.

Kənd təsərrüfatı naziri Heydər Əsədov aqrar sahədə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması istiqamətində tədbirlərin davam etdiriləcəyini diqqətə çatdırmışdır.

Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan üzrə nümayəndəsi Aliyə Əzimova dünyada məşğulluğun təmin edilməsində və ÜDM-də kənd təsərrüfatının xüsusi əhəmiyyətini vurğulamış, korporasiyanın aqrar sahəyə investisiya və məsləhət xidməti göstərdiyini bildirmiş, kənd təsərrüfatının inkişafına dair təkliflər səsləndirmişdir.

DEİK-in Türkiyə-Azərbaycan Biznes Şurasının sədri Selçuk Akat rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verərək, hər iki ölkənin iş adamları arasında səmərəli əməkdaşlıqdan məmnunluğunu ifadə etmiş, işgüzar dairələrin qarşılıqlı əlaqələrinin genişləndirilməsi imkanlarını qeyd etmişdir. Vurğulamışdır ki, dünyada hökm sürən iqtisadi böhran vəziyyətində ölkələrimiz birgə hədəflər müəyyənləşdirərək onların reallaşdırılması istiqamətində çalışmalıdır.

TUSİAB-ın İdarə Heyətinin sədri Yavuz Keleş Azərbaycanın qeyri-neft sektorunun inkişafına yönəlmiş siyasətini və bu baxımdan, 2015-ci ilin Azərbaycanda «Kənd təsərrüfatı ili» olmasını yüksək qiymətləndirmişdir. Kənd təsərrüfatı sahəsində hər iki ölkənin böyük potensiala malik olduğunu qeyd edən türliyəli qonaq bu imkandan səmərəli istifadənin vacibliyini vurğulamışdır. Qeyd edilmişdir ki, Türkiyə kənd təsərrüfatı sahəsində böyük təcrübəyə malikdir və belə tədbirlər aqrar sahədə səmərəli əməkdaşlığın qurulmasında çox faydalıdır.

Tədbir çərçivəsində Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır.

Konfrans «Pambıq, tütün, qarğıdalı, üzüm və fındıq məhsullarının yetişdirilməsi, istehsalı sahəsində yeni metod və texnologiyalar üzrə Türkiyə və Azərbaycan təcrübəsi» və «Qida məhsulları, qarğıdalı, tütün, üzüm, pambıq və fındığın istifadə sahələri» mövzularında sessiyalarla öz işini davam etdirmişdir. Sessiyalarda Azərbaycan və Türkiyənin kənd təsərrüfatı sahələri üzrə mütəxəssisləri aqrar sahədə öz təcrübələrini bölüşmüşlər.

**F.İKRAMQIZI**

# Vergi ödəyicilərinə göstərilən xidmətlər təkmilləşdirilir



*Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə səmərəli əməkdaşlığının qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində 2011-2015-ci illəri əhatə edən «Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin İnkişafı Konsepsiyası» mühüm əhəmiyyət kəsb edir. İcra müddəti başa çatmış Konsepsiya çərçivəsində görülmüş işlərlə bağlı Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi Elçin Məmmədovla söhbət etdik.*

***- Elçin müəllim, öncə Konsepsiyanın müəyyənləşdirdiyi başlıca hədəflər barədə: qarşıya hansı vəzifələr qoyulmuşdu?***

- 2010-cu ilin sonunda qəbul edilmiş bu sənəd Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin qarşısında 5 illik yeni mərhələdə vergi ödəyicilərinə xidmət sahəsinin inkişafı, xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi, funksional idarəetmənin yeni formalarının tətbiqi kimi vəzifələr qoymuşdu. Əsas hədəflərimiz bunlar idi:

♦ elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, e-xidmətlərdən istifadənin kütləviləşdirilməsi;

♦ vergi bəyannamələrinin təkmilləşdirilməsi, tərtibatının sadələşdirilməsi;

♦ vergilərin vaxtında ödənilməsi, vergi borclarının yaranmaması üçün profilaktik işlərin təşkili;

♦ vergi ödəyicilərinə xidmətin forma və metodlarının təkmilləşdirilməsi;

♦ vergi ödəyicilərinə xidmət sahəsində çalışan əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s.

***- Elektron xidmətlərin genişləndirilməsi nəinki Vergilər Nazirliyinin, ümumiyyətlə, hökumətin fəaliyyətinin başlıca prioritetlərindəndir. Konsepsiya çərçivəsində bu sahədə hansı nailiyyətlər əldə olunub?***

- Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsi bizim üçün həmişə aktualdır. Burada əsas məqsəd perspektivdə vergi ödəyiciləri ilə canlı təmas formalarını məhdudlaşdırmaq və müasir informasiya texnologiyalarından istifadə etməklə vergi orqanları tərəfindən göstərilən xidmətlərin elektron formada tətbiqinin genişləndirilməsinə nail olmaqdır.

Hazırda ölkəmizdə müxtəlif dövlət qurumları tərəfindən 432 elektron xidmət göstərilir. Bu xidmətlərin böyük hissəsi, dəqiq desək, 62-si Vergilər Nazirliyinin payına düşür. İndi Vergilər Nazirliyi mərkəzi icra hakimiyyəti orqanları arasında ən çox elektron xidmət göstərən dövlət orqanıdır. Tətbiq olunan elektron xidmətlər vergi inzibatçılığının, demək olar ki, bütün mərhələlərini əhatə edir.

***- Son illər Azərbaycanda informasiya texnologiyaları xeyli inkişaf edib. Ancaq onu da etiraf etmək lazımdır ki, vətəndaşlar müasir texnologiyalar sahəsində yetərincə təkmil bilik və səriştələrə malik deyillər. Belə bir şəraitdə Vergilər Nazirliyi elektron xidmətlərin tətbiqi nəzərdə tutulan auditoriyanı əhatə edə bilirmi?***

- Tamamilə doğru yanaşmadır. Həqiqətən, heç də bütün vergi ödəyicilərinin informasiya texnologiyalarından istifadə imkanları və bacarıqları eyni deyil. Vergi ödəyicilərinin bir qismi lazımi istifadəçi bacarıqlarına malik deyil, müvafiq bacarıqlara malik digər hissəsinin isə sərəncamında müvafiq texniki vasitələr yoxdur. Əlbəttə, hər iki amil ciddi problemdir və bunların həlli üçün müvafiq tədbirlər görmüşük.

Konsepsiya qüvvəyə minməzdən əvvəl - 2007-ci ildən Vergilər Nazirliyi tərəfindən vergi orqanı olmayan şəhər və rayonlarda müasir avadanlıqlarla və sürətli internet xətti ilə təchiz edilmiş kompüter terminalları yaradılaraq vergi ödəyicilərinin istifadəsinə verilmişdi. Sonradan bu obyektlər vergi ödəyicilərinə xidmət mərkəzlərinə çevrildi. Burada vergi ödəyiciləri digər xidmətlərlə yanaşı, elektron xidmətlərdən də yararlanmaq imkanı əldə ediblər. Təməli həmin dövrdən qoyulan yanaşma bu gün də vergi ödəyicilərinə xidmət mərkəzlərində davam etdirilir və bu strukturlar elektron xidmətlərin təşviqi sahəsində aparıcı qüvvəyə çevrilib. Son 4 il ərzində - 2012-2015-ci illərdə göstərilmiş elektron xidmətlərin sayı 539 mindən çox olub. Digər tərəfdən, xidmət mərkəzlərinin əməkdaşları tərəfindən vergi ödəyicilərinə elektron xidmətlərdən istifadə ilə bağlı əməli kömək göstərilməklə yanaşı, onların informasiya texnologiyaları üzrə bacarıqlarının yaradılmasına da diqqət yetirilir. Məqsəd budur ki, vergi ödəyicisi növbəti müraciətlər zamanı özünə lazım olan xidmətlərdən müstəqil şəkildə yararlana bilsin.

***- Xidmət mərkəzlərində elektron xidmətlərdən əlavə, daha hansı xidmətlər göstərilir?***

- Hazırda sayı 55-ə çatmış xidmət mərkəzlərinə müraciət edənlər elektron xidmətlərlə yanaşı, şifahi suallarına cavab alır, yazılı müraciətlərini təqdim edir və hazır sənədləri götürə bilirlər. Təkcə 2015-ci il ərzində bu mərkəzlərə 390 minədək vergi ödəyicisi müraciət edib və onlara 580 minədək xidmət göstərilib *(bax diaqrama)*.

Qeyd edim ki, bu mərkəzlərdə mobil nömrə vasitəsilə identikləşdirilən, asanlığı və rahatlığı ilə fərqlənən, vergi ödəyicisinin məlumatlarının təhlükəsizliyinə xidmət edən «ASAN imza»nın alınmasında da əməli kömək göstərilir. Yaranma tarixindən 2015-ci ilin sonunadək 190.590 «ASAN imza» verilib ki, bunların bir hissəsi mərkəzlər vasitəsilə təmin olunub.

Hazırda müraciət edən şəxslərin məmnunluğunu və rahatlığını təmin etmək məqsədilə bütün xidmət mərkəzləri növbə, qeydiyyat, videonəzarət, səsyazma və qiymətləndirmə (sorğu keçirmə) sistemləri ilə təchiz olunub. Hər bir xidmət mərkəzinin girişində elektron növbə terminalı quraşdırılıb ki, bu da vergi ödəyicilərinə xidmətin təhlil üzərində qurulmasına imkan yaradır.

***- Konsepsiyanın hədəfləri arasında bəyanetmə proseslərinin sadələşdirilməsi də var. Bu sahədə hansı nailiyyətlər əldə olunub?***

- Əslində, vergitutma bazasının müəyyən olunmasına xidmət edən bəyanetmə vergi inzibatçılığının ən önəmli həlqələrindən biri kimi qəbul olunur. Təsadüfi deyil ki, Dünya Bankı tərəfindən «Doing Business» icmalında ölkə imicini formalaşdıran əsas amillərdən biri məhz bəyannamələrin təqdim olunmasına sərf edilən müddətdir. Bəyanetmə proseslərinin sadələşdirilməsi iki amili ehtiva edir - bəyannamə formalarının mümkün qədər sadələşdirilməsini və bəyannamələrin təqdimolunma formalarının təkmilləşdirilməsini.

Bəyannamə formalarının təkmilləşdirilməsi bir çox digər amillərlə, o cümlədən vergi nəzarətinin təkmilləşdirilməsi və vergitutma bazasının müəyyən olunması ilə sıx bağlıdır. Ona görə də Vergilər Nazirliyinin aidiyyəti strukturları tərəfindən bu proses üzərində iş davam etdirilir. O ki qaldı bəyanetmə imkanlarına, hazırda vergi ödəyicisi vergi öhdəliklərini 3 yolla - şəxsən təqdim etmək, poçtla təhvil vermək və elektron şəkildə göndərməklə bəyan edə bilir.

Bir qədər də elektron bəyanetmə barədə məlumat vermək istərdim. Bu proses 2007-ci ildən başlayıb və ilkin mərhələdə yalnız Vergilər Nazirliyinin xüsusi Bəyannamə Tərtibatı Proqramı (BTP) vasitəsilə offlayn qaydada həyata keçirilirdi. Sonrakı dövrlərdə sadələşdirilmiş vergi bəyannaməsini onlayn qaydada təqdim etmək imkanı yaradıldı. Bəyanetmə prosesinin inkişafının daha bir təzahürü torpaq vergisinə şamil edilən bəyannamələrin vergi orqanları tərəfindən ilkin tərtibatı və növbəti mərhələdə vergi ödəyicisi tərəfindən təsdiqi mexanizminin işə salınmasıdır.

Göstərilmiş xidmətlərin növləri üzrə bölgüsü



| | |
|---|---|
| 165637 | YAZILI (KAĞIZ) DAŞIYICILARDA MÜRACİƏTLƏRİN SAYI |
| 130789 | ŞİFAHİ XİDMƏTLƏRİN SAYI |
| 99190 | HAZIR SƏNƏDLƏRİN TƏHVİL VERİLMƏSİ |
| 28306 | BƏYANNAMƏLƏRİN, HESABATLARIN, ARAYIŞLARIN VƏ DİGƏR SƏNƏDLƏRİN QƏBULU |
| 16417 | VERGİLƏRƏ AİD ƏRİZƏ VƏ HESABAT FORMALARININ, BUKLET VƏ BAŞQA NƏŞRLƏRİN VERİLMƏSİ |
| 4117 | ÖZÜNƏXİDMƏT |

Daha bir yenilik mobil texnologiyalar sahəsində baş verib. 2015-ci ildən vergi ödəyiciləri Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə zəng edərək, sadələşdirilmiş vergi bəyannaməsini vergi orqanına «ASAN imza» vasitəsilə daha rahat və sadə yolla təqdim edə bilirlər.

***- Konsepsiyada inkişafına ayrıca önəm verilən Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi yeni innovativ mexanizmlərin tətbiqi ilə seçilir...***

- Xatırlatmaq istərdim ki, ayrı-ayrı dövlət orqanlarındakı analoji telefon-məlumat xidmətlərini Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə inteqrasiya etməklə vahid nömrəli telefon-məlumat xidmətinin təşkili Konsepsiyada vergi ödəyicilərinə xidmətin inkişafında strateji hədəf kimi göstərilmişdi. Gərgin zəhmət nəticəsində Universal Çağrı Mərkəzinin yaradılması ilə istəyimizə nail ola bildik. Artıq sahibkarlar və vətəndaşlar vaxt itkisinə yol vermədən 195 nömrəsini yığmaqla biznesin qeydiyyatı, lisenziyalaşdırma, mühasibat uçotu, vergilər, rüsumlar, gömrük rəsmiləşdirilməsi, sosial və digər icbari ödənişlər, əmək qanunvericiliyi, sosial müdafiə, pensiya təminatı və s. barədə bir mənbədən məlumat almaq imkanı əldə ediblər. Bundan başqa, Çağrı Mərkəzində bir sıra yeniliklər tətbiq olunub, vergi ödəyicilərinə göstərilən xidmətin spektri genişləndirilib. Məsələn, vergi ödəyiciləri vergi qanunvericiliyi və inzibatçılığı barədə məlumatları müntəzəm əldə etmək istədikdə, ikitərəfli SMS xidmətinə abunə ola bilərlər. Qeyd edim ki, 2014-cü ildə abunəçilərə göndərilən SMS-lərin sayı 12.492 idisə, 2015-ci ildə bu rəqəm 19.730 olub.

Digər vacib məqam ondan ibarətdir ki, Çağrı Mərkəzi tərəfindən buraxılmış zənglər və ya vergi ödəyicisinin sifarişi əsasında əməkdaşlarımız tərəfindən vergi ödəyiciləri ilə əks-əlaqə saxlanılır, yəni heç bir müraciət cavabsız qalmır. 2014-cü ildə buraxılmış zənglər üzrə əks-əlaqənin sayı 4709, sifariş üzrə 412 olub. 2015-ci ildə isə bu göstəricilər, müvafiq olaraq, 5356 və 594 olub.

***- Bu gün vergi qanunvericiliyi və inzibatçılığı ilə bağlı məlumatlandırma, maarifləndirmə və təbliğat işlərinin aparılması məsələsi xeyli aktuallaşıb. Bu işlər daha hansı forma və vasitələrlə aparılır?***

- Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsinin vacib vasitəsi kimi Vergilər Nazirliyinin internet portalını (www.taxes.gov.az), həmçinin sosial şəbəkələrdəki səhifələrini misal çəkə bilərəm. www.taxes.gov.az ölkəmizin ən böyük dövlət orqanı portallarından biridir, informasiya texnologiyaları sahəsində dəfələrlə mükafatlara layiq görülərək, birincilik qazanıb. Bununla yanaşı, Vergilər Nazirliyinin mətbu orqanlarının fəaliyyətini, digər kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlığı da qeyd etmək yerinə düşər. Məsələn, «Azad Azərbaycan» teleradio yayım şirkəti ilə Vergilər Nazirliyinin birgə telelayihəsi olan həftəlik «İqtisadi zona» verilişinin əhəmiyyətini vurğulamaq istərdim. Bu iqtisadi-analitik proqram Azərbaycanda və dünyada baş verən ən vacib iqtisadi yenilikləri geniş tamaşaçı kütləsinə çatdırmaqla yanaşı, vergi qanunvericiliyi və inzibatçılığı sahəsində atılan addımları, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması prosesini dəstəkləyir.

Vergilər Nazirliyinin Təhsil Nazirliyi ilə əməkdaşlığı da real bəhrələr verir. Vergi orqanları kənd və qəsəbələrdə «Vergi dostları» şəbəkəsini təmsil edən müəllimlərlə sosial tərəfdaşlıq şəraitində vergi qanunvericiliyi və inzibatçılığına dair məlumatların vergi ödəyiciləri, sadə vətəndaşlar arasında yayılmasını təmin edirlər. Yaşadığı ərazidə əhali arasında vergilərə dair məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini həyata keçirən, tətbiq olunan elektron xidmətlər barədə vergi ödəyicilərini məlumatlandıran, uşaq və gənclərə vergilərin əhəmiyyətini izah edən, orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş vergilərə aid dərs vəsaitlərinin tədrisinə köməklik göstərən «vergi dostları»na vergi orqanlarının, ilk növbədə, xidmət strukturlarının əməkdaşları tərəfindən zəruri maddi-texniki dəstəklə yanaşı, metodiki izahatlar verilir. 2014-cü və 2015-ci illərdə keçirilmiş 258 tədbirdə 5262 «vergi dostu»na müvafiq metodiki dəstək göstərilmişdir. Təbii ki, maarifləndirmə və məlumatlandırma sahəsində fəaliyyətimiz yalnız sadaladıqlarımızla məhdudlaşmır. Təşkil etdiyimiz müxtəlif müsabiqələr, bilik yarışları da bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

***- Vergi ödəyicilərinə xidmət sahəsinin inzibatçılığının inkişafı xidmətlərin davamlı təkmilləşdirilməsini tələb edir. Bu istiqamətdə hansı işlər görülür?***

- Başlıca məqsədlərimizdən biri məkandan, vaxtdan, əməkdaşın və vergi ödəyicisinin kimliyindən, digər subyektiv amillərdən asılı olamayaraq, vergi ödəyicilərinə xidmətlərin eyni şəkildə, eyni səpkidə, eyni səviyyədə göstərilməsini təmin etməkdir. Bunun üçün «Vergi ödəyicilərinə xidmətlərin vahid standartları» müəyyən olunub.

Vergi orqanlarına telefonla, yaxud şəxsən müraciət edən şəxsləri «195» Çağrı Mərkəzinin və xidmət mərkəzlərinin təmsilçiləri qarşıladıqları üçün onların davranışı, rəftarı Vergilər Nazirliyi barədə ilk təəssürat yaradır. Bunu nəzərə alaraq, həmin mərkəzlərin əməkdaşları tərəfindən göstərilən xidmətlərin səviyyəsinin bir qədər də artırılması məqsədilə müvafiq qaydalar hazırlanıb. Vergi ödəyicilərinə üzbəüz və telefon vasitəsilə xidmət göstərən əməkdaşların fəaliyyəti daim nəzarətdə saxlanılır, xidmətlərin müəyyən olunmuş standartlara və qaydalara uyğunluğu mütəmadi yoxlanılır, əməkdaşlar qiymətləndirilir, istər vergi qanunvericiliyində və inzibatçılığında, istərsə də kadr potensialında aşkar edilən zəif tərəflərin aradan qaldırılması istiqamətində əməli tədbirlər həyata keçirilir. Təkcə 2015-ci ildə xidmət mərkəzlərinin 160 təmsilçisinin qiymətləndirilməsi nəticəsində 29 əməkdaşla bağlı məsuliyyət, 31 nəfərə isə həvəsləndirmə tədbirinin görülməsi təklif olunub, distant təhsil formasında 188 əməkdaş tədris kurslarına cəlb edilib.

***- Qarşıdakı dövrdə vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi istiqamətində daha hansı addımların atılması nəzərdə tutulur?***

- Hazırda «Fiziki şəxsin onlayn qeydiyyatı» və «Şəhadətnamə-dublikatın verilməsi» kimi elektron xidmətlərin təkmilləşdirilməsi üzərində işlərimiz davam edir. Dəyişiklik nəticəsində vergi ödəyiciləri hər iki xidmətdən Çağrı Mərkəzinə zəng etməklə yararlana biləcəklər.

2016-cı ildən «İqtisadi zona» verilişinin radio formatının yayımına da başlamaq niyyətindəyik. Vergi ödəyiciləri hər həftə bir saat ərzində canlı yayımda suallarını SMS vasitəsilə interaktiv qaydada göndərərək, nazirliyin rəsmi nümayəndəsindən cavab ala biləcəklər. Proqramlarda Vergilər Nazirliyinin rəsmilərinin və ekspertlərin çıxışları da nəzərdə tutulur.

Xüsusi olaraq, «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək» Tvinninq layihəsini də qeyd etmək yerinə düşər. Artıq layihə üzərində işə başlanmışdır, IOTA tərəfindən dəvət edilmiş ekspertin və Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin əməkdaşlarının iştirakı ilə bu sahədə mövcud vəziyyəti və istənilən nəticəni özündə əks etdirən tvinninq layihəsinin «fiş»i (xüsusi sifarişi) hazırlanmışdır. Onu da bildirim ki, İspaniya və Fransanın birgə təklifi elan olunmuş tenderdə qalib gəlib.

Ümumi müddəti 27 ay, büdcəsi isə 1,3 milyon avro məbləğində müəyyən olunan layihə 4 əsas komponentdən ibarətdir:

♦ vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı İnkişaf Proqramının yaradılması;

♦ xidmətlərə tələbatın müəyyənləşdirilməsi və idarə olunması;

♦ vergi ödəyicilərinə göstərilən xidmətlərin əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi və mövcüd göstəricilərinin təkmilləşdirilməsi;

♦ qabaqcıl metodologiyalara əsaslanaraq, bütün xidmət kanalları üzrə səmərəliliyin artırılması üçün məlumatların təhlili mexanizmlərinin yaradılması.

Tvinninq layihəsinin yerinə yetirilməsi nəticəsində təhlil əsaslı xidmət yaradılacaq.

*Hazırladı:*
**Elbrus CƏFƏRLİ**



## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlakın satışından vergi

***2013-cü ildə aldığım qeyri-yaşayış sahəsini satmaq fikrindəyəm. Bununla bağlı mənə hansı qaydada vergi hesablanacaq?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 1 yanvar 2016-cı il tarixdən qüvvədə olan müddəalarına əsasən, qeyri-yaşayış sahəsinin təqdim edilməsi sadələşdirilmiş vergi üzrə vergitutma obyektini yaradır. VM-in 219.3-1-ci maddəsinə görə, VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələri vergitutma obyektidir. VM-in 218.4.3-cü maddəsində isə qeyd edilir ki, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər VM-in 218.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, sadələşdirilmiş verginin ödəyiciləridir. Burada aşağıdakı hallar istisna edilir:

- fiziki şəxsin azı beş il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi;
- VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları.

VM-in 220.8-ci maddəsinin müddəalarına uyğun olaraq, VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün sadələşdirilmiş vergi VM-in 219.3-1-ci maddəsində göstərilən vergitutma obyektinin hər kvadratmetri üçün 15 manat olmaqla, bu maddə ilə müəyyən edilmiş qaydada hesablanır.

VM-in 220.8.1-ci maddəsinə əsasən, bina Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində yerləşdikdə, bu maddədə müəyyən olunmuş sadələşdirilmiş vergi məbləğinə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş zonalardan asılı olaraq, həmin maddədə göstərilmiş əmsallar tətbiq olunur. «Bakı şəhəri, habelə onun qəsəbə və kəndləri üzrə zonaların sərhədləri» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 30 dekabr tarixli 412 nömrəli qərarı ilə təsdiq edilmişdir.

VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün binaların qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə sadələşdirilmiş vergi VM-in 220.8-ci maddəsi ilə hesablanmış məbləğə 1,5 əmsal tətbiq olunmaqla hesablanır (VM, maddə 220.8-1).

Onu da qeyd etmək lazımdır ki, VM-in 150.1.9-cu maddəsinə görə, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim olunması üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur. Bu zaman aşağıda göstərilən hallar istisnadır:

- fiziki şəxsin azı 5 beş il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi;
- VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə;

VM-in 221.5-ci maddəsinə uyğun olaraq, sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Ənənəvi istehsal sahələrinin inkişafı üçün tədbirlər görülür

*«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» ölkə bölgələrinin hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olaraq hazırlanıb.*

İqtisadiyyat naziri Şahin Mustafayev proqramın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda çıxış edərkən bildirib ki, regionlarda görülmüş tədbirlər nəticəsində bölgələrin siması tamamilə dəyişmiş, yeni istehsal sahələri və emal müəssisələri yaradılıb. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində dövlət başçısı tərəfindən qəbul edilmiş mühüm qərarlar özəl bölmənin inkişafına böyük təkan verir: «Ölkəmizin davamlı inkişafının və iqtisadi dayanıqlılığının təmin olunmasında iqtisadiyyatın şaxələndirilməsi siyasətinin, bu siyasətin prioritet istiqamətlərindən olan regionların sosial-iqtisadi inkişafı proqramlarının müstəsna əhəmiyyəti vardır. 2004-cü ildən uğurla icra olunan bu proqramlar bölgələrdə iqtisadi potensialın artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə şərait yaradıb. Ötən il ərzində proqrama uyğun olaraq zəruri tədbirlər həyata keçirilib, regionların inkişafına bütün mənbələr hesabına 3,6 milyard manat vəsait yönəldilib. Hesabat ilində regionlarda infrastruktur layihələrinin icrası, o cümlədən yol-nəqliyyat, elektrik, qaz və su təchizatı infrastrukturunun yenilənməsi işləri davam etdirilib. İl ərzində 400 kilometrdən artıq ölkə və yerli əhəmiyyətli avtomobil yolu, 12 yeni körpü və yolötürücüləri tikilib və ya təmir olunub. Kənd yollarının tikintisi davam etdirilib, əhalisi 351 min nəfər olan 245 yaşayış məntəqəsini birləşdirən 590 kilometrdən artıq kənd yolu çəkilib».

## Ötən il ərzində regionların inkişafına bütün mənbələr hesabına 3,6 milyard manat vəsait yönəldilib

Qeyd edilib ki, ötən il regionlarda iki elektrik stansiyası istifadəyə verilib, 1289 transformator və 20 yarımstansiya quraşdırılıb və ya təmir olunub, 8200 kilometrdən artıq elektrik və 12500 kilometrə yaxın qaz xətləri çəkilib, 43 rayon üzrə 430 yaşayış məntəqəsi təbii qazla təmin edilib, qazlaşdırma səviyyəsi 90 faizə, o cümlədən regionlar üzrə 80 faizə çatıb: «Gəlirlərin azalmasına baxmayaraq, ötən il də bütün sosial proqramlar tam həcmdə icra olunub. Regionlarda 39 məktəb, 37 bağça, 55 səhiyyə, 13 gənclər və idman, 33 mədəniyyət obyekti tikilib və ya əsaslı təmir olunub. Məcburi köçkünlər üçün 5 yeni yaşayış kompleksi salınıb, 3 min ailənin və ya 15 min məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb, əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi önəm verilib, Tərtər rayonunda 54 mənzilli yaşayış binası, 11 rayonda 82 fərdi ev tikilib. Həmçinin qlobal böhran şəraitində digər ölkələrdən fərqli olaraq, ölkə başçısının müvafiq sərəncamları ilə əməkhaqqı, pensiya və müavinətlərin artırılması və digər sosial tədbirlər insanlara dövlət səviyyəsində göstərilən qayğının ən bariz göstəriciləridir».

Bildirilib ki, qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan müasir sənaye müəssisələrinin yaradılmasının dəstəklənməsi, sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilib, 270-dək sənaye müəssisəsi, o cümlədən texniki avadanlıqlar, iri qabaritli transformatorlar, metal konstruksiyalar, beton məmulatları zavodları, tekstil fabriki və digər müəssisələr açılıb, bir sıra mühüm sənaye obyektlərinin tikintisinə başlanılıb, ötən il sənaye məhsulu 2,4 faiz, o cümlədən qeyri-neft sənayesi 8,4 faiz artıb: «2015-ci ilin «Kənd təsərrüfatı ili» elan edilməsi, bu çərçivədə fermerlərə satılan gübrəyə, yanacaq və motor yağlarına görə subsidiyaların artırılması, «Aqrolizinq» xətti ilə gətirilən texnikaya yeni güzəştlərin tətbiqi və digər tədbirlər aqrar sahənin inkişafına mühüm töhfəsini verir. Ötən il, həmçinin, aqrar sahədə 5100 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 213 milyon manata yaxın güzəştli kredit verilib. Son illərdə dövlətin güzəştli kreditləri hesabına 43 müasir quşçuluq və 25 heyvandarlıq kompleksinin, 39 intensiv bağçılıq təsərrüfatının, 53 logistik mərkəzin və 22 taxıl anbarının, 16 meyvə-tərəvəz emalı, 9 süd emalı, 8 ət emalı müəssisəsinin, 28 çörək zavodunun, 46 istixana kompleksinin, 6 yem zavodunun və digər müasir müəssisələrin yaradılması aqrar sektorda dönüşün əldə olunmasına, ixrac potensialının artmasına, idxaldan asılılığın azalmasına, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə səbəb olub. Ötən il əsas ərzaq məhsulları üzrə özünütəminat səviyyəsi artmaqda davam edib. 19 rayonda 40 min hektardan artıq sahədə 29 iri fermer taxılçılıq təsərrüfatının yaradılması başa çatıb və məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil edir. Ümumilikdə, ötən il 84 mini daimi olmaqla 110 min yeni iş yeri açılıb, eyni zamanda, müxtəlif səbəblərdən 40 min iş yeri bağlanıb. Qarşıdakı illərdə məşğulluğun artırılması məqsədilə regionlarda ənənəvi istehsal sahələrinin, o cümlədən pambıqçılığın, tütünçülüyün, eləcə də xalçaçılığın və digər sənətkarlıq növlərinin inkişaf etdirilməsi üçün müvafiq tədbirlər görüləcək».

İqtisadiyyat Nazirliyi tərəfindən Dövlət Proqramının məqsədlərinə uyğun olaraq, qarşıdakı illər üçün hər bir regionun iqtisadi potensialı və əhalinin məşğulluq səviyyəsi nəzərə alınmaqla ilkin dəyəri 1,5 milyard manat təşkil edən 150-dən çox investisiya layihəsi hazırlanıb.

**AYTƏN**

# «Kütləvi çıxarış» kampaniyası davam edir

Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sosial layihəsi - «Kütləvi çıxarış» kampaniyası əhali arasında böyük rəğbətlə qarşılanıb. Bu dəfə kampaniyadan Bakı şəhərinin Nizami rayon sakinləri faydalanıb. Bu rayonda yerləşən bir neçə çoxmənzilli yaşayış binasının 100-ə yaxın sakininə daşınmaz əmlakın qeydiyyatı xidmətləri göstərilib və çıxarışlar təqdim olunub. Qeyd edək ki, kampaniya çərçivəsində qanunla müəyyən edilmiş dövlət rüsumu və xidmət haqqı ödənilməklə çıxarış verilir.

Komitədən AZƏRTAC-a bildirilib ki, kampaniya nəticəsində qeydiyyat xidmətləri ƏMDK-nın mobil ofisləri vasitəsilə vətəndaşlara birbaşa ünvanlarında çatdırılıb. Bununla da vətəndaşlar xidmətlərdən daha rahat və çevik qaydada faydalanıb. «Kütləvi çıxarış» kampaniyasının digər mühüm üstünlüyü bütün qeydiyyat xidmətlərinin «bir pəncərə» prinsipi əsasında göstərilməsidir. Komitənin hüquqşünasları tərəfindən kampaniya çərçivəsində vətəndaşlara hüquqi yardımlar göstərilib. Bildirilib ki, bəzi hallarda vətəndaşlar çıxarış almaq üçün daşınmaz əmlakın dövlət reyestri ilə bağlı qanunvericiliyə cavab verməyən ilkin hüquqmüəyyənedici sənədlərlə müraciət edirlər. Belə ki, təyinatınazidd torpaqlarda aparılmış tikintilərə dair sənədlər, torpaqayırma qaydalarına, tikintiyə icazə verilməsi barədə hüquqi tələblərə uyğun olmayan sənədlərlə edilən müraciətlərə rast gəlinir, müxtəlif daşınmaz əmlaklar barədə təyinatınazidd sənədlər təqdim olunur. Vətəndaşlar isə belə sənədlər əsasında onlara çıxarış verilməsini tələb edirlər. Aparılan hüquqi maarifləndirmə aksiyası çərçivəsində belə məsələlərlə bağlı vətəndaşlara izahlar verilib, daşınmaz əmlakın qeydiyyatı haqqında qanunvericiliyin tələbləri onların nəzərinə çatdırılıb, qeydiyyat prosedurları, zəruri sənədlər, daşınmaz əmlakın qeydiyyatının üstünlükləri, sosial-iqtisadi faydaları və digər məsələlər izah edilib.

Bütün bu sosial addımlar komitənin əsas hədəflərindən biri olan qeydiyyat xidmətlərində əlçatanlığın və vətəndaş məmnunluğunun təmin olunmasının artırılmasına xidmət edir. Xatırladaq ki, kampaniya çərçivəsində yalnız «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Qanuna uyğun olaraq vətəndaşların mülkiyyət hüquqlarını təsdiq edən ilkin sənədlər əsasında çıxarışlar verilir. Belə sənədlərə mənzillərə dair orderlər, aktlar, mülkiyyət barədə qeydiyyat vəsiqələri, torpaq sahəsinə dair sovet dövründə sovxoz və kolxozlar tərəfindən verilmiş əmrlər və «Daşınmaz əmlakın dövlət reyestri haqqında» Qanunda əksini tapmış digər hüquqi sənədlər aiddir.

«Kütləvi çıxarış» kampaniyası növbəti həftələrdə də Bakı və regionlarda davam etdiriləcək. İndiyədək kampaniya sayəsində 6500-ə yaxın vətəndaş komitənin qeydiyyat xidmətlərindən yararlana bilib. Qeydiyyat sisteminin sadələşdirilməsi, elektron və onlayn xidmətlərin və «bir pəncərə» prinsipinin tətbiqi və sosial tədbirlərin həyata keçirilməsi son illərdə qeydiyyat sayının yüksəlməsi ilə nəticələnib. Ötən ildə qeydiyyat sayının 191 minə çatması bunun əyani göstəricilərindəndir. Eyni zamanda, indiyədək elektron xidmətlər vasitəsilə 300 minə yaxın müraciətin qeydə alınması bu xidmətlərə olan maraq və ehtiyacın bariz nümunəsidir.

# Azərbaycan xarici maliyyə bazarlarına istiqrazlar yerləşdirəcək

Maliyyə naziri Samir Şərifov bildirib ki, xarici bazarlarda yerləşdiriləcək istiqrazların ümumi dəyəri 2 milyard dollar təşkil edəcək. İlkin sınaq kimi Azərbaycan 2014-cü ildə beynəlxalq maliyyə bazarlarına öz istiqrazlarını yerləşdirib və debüt hesab olunan bu plan uğurla başa çatıb. Dollarla qiymətləndirilən böyük nominallı həmin qiymətli kağızların emissiyası üçün «DeutscheBank» və «CitiBank» kimi nüfuzlu qurumların razılığı alınıb. İndiki mərhələdə «CitiBank», «JP Morgan» və «UniCreditBank»da Azərbaycan istiqrazlarını yerləşdirmək üçün aparıcı menecerlər seçilib.

İqtisadçı-ekspert Orxan Məmmədov hesab edir ki, dünya iqtisadiyyatında qiymətli kağızlar və istiqrazlar bank depozitlərindən və digər maliyyə alətlərindən daha gəlirli hesab olunduğundan, iri investorlar bu sahəyə daha çox sərmayə qoyurlar. Hazırda Azərbaycandakı dövlət və qeyri-dövlət şirkətlərinin, iri müəssisələrin, bank və səhmdarların Avropanın səhm bazarına daxil olaraq sabit və potensial investor kimi öz maliyyə alətlərini yerləşdirməsi vacibdir. Hələlik bu prosesə dövlət potensial investor kimi qoşulmağı nəzərdə tutur, digər iri şirkətlərin də öz aktivlərini pul şəklində saxlamaqdansa, səhm və qiymətli kağızlar kimi emissiya etməsi məqsədəuyğundur. Çünki xarici valyuta ekvivalenti üzrə yerləşdirilən istiqrazlar valyuta bazarında baş verən gərginliklərdən sığortalanır, sabit maliyyə aləti kimi çıxış edir.

Maliyyə Nazirliyi dövlət büdcəsinə əlavə vəsaitlərin cəlb edilməsi məqsədilə daxili bazara təxminən 500 milyon dollar həcmində istiqrazların buraxılışını da planlaşdırır. S.Şərifov bildirib ki, hazırda ölkədə böyük həcmdə xarici valyuta mövcuddur, lakin bu valyuta işləmədiyindən öz sahiblərinə hər hansı xeyir gətirmir. Xarici valyutanın dövriyyəyə cəlb olunması və bazarın pula tələbatının ödənilməsinin bir variantı kimi istiqrazlar buraxılacaq.

Artıq Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən ortamüddətli istiqrazlar qeydiyyata alınıb. 5 milyon ədəd nəzərdə tutulan istiqrazların təxminən yarısı emissiya olunub və yaxın günlərdə vətəndaşlara təqdim ediləcək. Bir istiqrazın dəyəri 100 manatdır və bu kağızlar hazırda valyuta bazarındakı gərginliyin aradan qaldırılması üçün ən real vasitə hesab olunur. Maliyə Nazirliyi pullarını xarici valyutaya çevirən insanları manat istiqrazlarını almağa dəvət edir və bildirir ki, istiqrazlara qoyulan faizlər bank faizlərindən daha yüksəkdir.

Daxili bazar üçün nəzərdə tutulmuş istiqrazların üstünlükləri barədə danışan iqtisadçı O.Məmmədov bildirib ki, hökumət vətəndaşların dollar yığımından daha çox manata üstünlük verməsinə nail olmaq və milli valyutaya olan inamı bərpa etmək məqsədilə qiymətli kağızların buraxılışını əsas vasitələrdən biri hesab edir. Bu istiqrazların manat üzrə divident faizləri daha yüksək olacaq. Manatla alınmış istiqrazların illik gəlirliliyi 12 faiz, dollarla alınmış istiqrazlarınkı gəlirlilik isə 3-4 faiz təşkil edəcək. İstiqrazlara dövlət zəmanəti isə onun üstünlüyünü xeyli artırır. Bundan başqa, insanlar bu kağızla əmlak sahibi də ola bilərlər. Nağd pulla müqayisədə ipoteka yolu ilə istiqrazla daşınmaz əmlaka sahib olmaq daha sərfəlidir. Çünki burada həm ipoteka kreditinin faizləri aşağı olur, həm də mənzilin qiymətində güzəşt edilir. İstiqrazların digər üstünlüyü ondadır ki, vətəndaş istədiyi vaxt onu geri qaytarıb pulunu ala bilər. Dövlət üçün bunun ən böyük üstünlüyü isə insanlarda olan pulların iqtisadiyyata yönəldilməsidir. Həmin vəsaitlər dövlət tərəfindən sahibkarlığa güzəştli kreditlərin verilməsinə yönəldilə bilər ki, bu da biznesin inkişafına əlavə stimul deməkdir.

**E.CƏFƏRLİ**




DAHA ZƏNGİN MƏLUMAT!
VERGİLƏR NAZİRLİYİ, İQTİSADİYYAT VƏ SƏNAYE NAZİRLİYİ,
MALİYYƏ NAZİRLİYİ, ƏDLİYYƏ NAZİRLİYİ, ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ,
DÖVLƏT GÖMRÜK KOMİTƏSİ, DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU

# Ünvanlı sosial yardım üçün müraciət elektron formada ediləcək

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev qeyd etmişdir ki, ünvanlı sosial yardım sahəsində aparılan islahatlar nəticəsində yardım alan insanların sayı azalıb: «Bunun hesabına həqiqətən bu yardıma möhtac olan ailələrə daha da böyük məbləğdə yardım verilir».

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, ötən il respublikamızda orta hesabla 112.663 ailə (492.337 nəfər ailə üzvü) ünvanlı dövlət sosial yardımı ilə təmin olunub ki, bu da 2014-cü illə müqayisədə 7,2% azalma deməkdir. Yardım alan ailələrin sayının azalması ödənilən yardımların məbləğinin artmasına imkan verib. 2015-ci ilin dekabr ayında ünvanlı dövlət sosial yardımının bir ailəyə düşən orta aylıq məbləği əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə təqribən 14,1% artıq olmuşdur. Hazırda ölkənin müxtəlif regionlarında 22 minədək ailə ünvanlı sosial yardım üçün əhalinin sosial müdafiəsi mərkəzlərinə müraciət etmişdir.

Sosial yardım alanların sayının azalmasına təsir edən amillərdən ən əsası yardımların təyinatında ünvanlılıq və şəffaflıq prinsiplərinə əməl olunmasına nəzarətin gücləndirilməsidir. 2013-cü ilin sonlarından ünvanlı yardım alan ailələrin siyahısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) rəsmi internet saytında (www.mlspp.gov.az) yer almışdır ki, bu da nəticədə həqiqi yardıma ehtiyacı olanların müəyyən edilməsində böyük rol oynamışdır. Bundan əlavə, ünvanlı sosial yardımların təyinatı prosesində məmur-vətəndaş təmasının minimuma endirilməsi üçün bu sahənin tam avtomatlaşdırılması məqsədilə dövlət başçısının 23 fevral 2015-ci il tarixli fərmanı əsasında ƏƏSMN tərəfindən Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi (VEMTAS) yaradılmışdır. Bununla da yardımların təyinatı prosesi «Elektron hökumət» portalı üzərindən VEMTAS vasitəsilə avtomatlaşdırılmış şəraitdə həyata keçiriləcək ki, bu da yardım alanların sayına təsirsiz ötüşməyəcək.

Nazirlikdən verilən məlumata görə, hazırda Bakının Binəqədi və Yasamal rayonlarında yeni sistemin sınaq işlərinə başlanılıb. Artıq həmin rayonların əhalinin sosial müdafiəsi mərkəzlərində sakinlərə ünvanlı yardım almaq üçün elektron formada müraciət edilməsində ilkin texniki kömək göstərilməsi üçün yardım masaları da fəaliyyət göstərir. Hər bir yardım masasında iki kompüter avadanlığı quraşdırılıb. Kompüterlərdən biri sərbəstdir və vətəndaşların ünvanlı dövlət sosial yardımı almaq məqsədilə özlərinin sərbəst şəkildə elektron müraciət etmələri üçündür. Digər kompüterdə isə mərkəz əməkdaşları kompüterdə işləmək səriştəsi olmayan vətəndaşlara kömək edirlər.

Ünvanlı dövlət sosial yardımı üçün müraciət etmiş şəxslər və onların ailə üzvləri üçün tələb olunan arayış və məlumatların əldə olunması məqsədilə ƏƏSMN-in «Elektron hökumət» portalı üzərindən 20 qurumun müvafiq informasiya resurslarına çıxışı təmin olunacaq. Bununla da VEMTAS-da müxtəlif qurumların daxil olduğu çoxşaxəli elektron infrastruktur formalaşacaq. Hazırda həmin qurumların nümayəndələri ilə görüşlər keçirilərək müzakirələr aparılır. Artıq 12 dövlət qurumu (Daxili İşlər, Ədliyyə, Vergilər, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Dövlət Sosial Müdafiə Fondu, Mərkəzi Bank,Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, «Azərsu» Açıq Səhmdar Cəmiyyəti) tərəfindən informasiya sistemlərinin və müvafiq servislərin portala inteqrasiyası təmin olunub. Digər qurumlar tərəfindən də işlər davam etdirilir.

ƏƏSMN ünvanlı dövlət sosial yardımı almaq üçün müraciət edən şəxsin FİN-ni və notarial qaydada təsdiq edilmiş ərizə nömrəsini «Elektron hökumət» portalına ötürəcək. Portal tərəfindən həmin şəxsin ailə üzvlərinin FİN-ləri və hər birinin adına olan mobil telefon nömrələri müəyyən edilərək servis vasitəsilə aidiyyəti mobil operatorlara ötürüləcək. Mobil operatorlar məlumatları yoxladıqdan sonra hər bir mobil nömrə üzrə son 1 il ərzində aparılmış ödənişlər barədə məlumatlar müvafiq servislər vasitəsilə portal üzərindən ƏƏSMN-ə qaytarılacaq. Bütün proseslər onlayn rejimdə avtomatik həyata keçiriləcək və beləliklə, ərizəçinin ödəmə qabiliyyəti müəyyən olunacaq. Əldə edilən məlumatlar ümumiləşdirildikdən sonra müraciət edən ailəyə yardımın təyin olunub-olunmaması barədə qərar qəbul ediləcək və bu barədə vətəndaşa elektron qaydada məlumat veriləcək.

Yardımın ödənilməsi məqsədilə həmin şəxsə dair bank hesabının açılması üçün sistem tərəfindən müvafiq banka sifarişin verilməsi də avtomatik həyata keçiriləcək. Qəbul edilmiş qərar ünvanlı dövlət sosial yardımının alınması üçün müvafiq bankın ünvanı və bank kartının hansı tarixdə təhvil götürülməli olduğu barədə məlumatlar ailəni təmsil edən şəxsin elektron ünvanına və ya ismarıc formasında mobil telefonuna göndəriləcək.

Yeni sistem aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımla təminatı sahəsində məmur-vətəndaş ünsiyyətinin aradan qalxmasına, həmin ailələrin bu yardım növü üzrə sürətlə, rahat və şəffaf xidmətlərə çıxışına imkan yaradacaq.

**A.NƏBİYEVA**




## BİR CÜMLƏ - BİR XƏBƏR

Ölkəyə investisiya yatıran şirkətlərin 7 il ərzində gətirdikləri mallar gömrük rüsumundan azad ediləcək.

Bu ilin dövlət büdcəsinin kəsiri dövlət borc kağızları, özəlləşdirmədən mədaxil və xarici qrantlar hesabına örtüləcək.

2016-cı ildə dövlət əmlakının özəlləşdirilməsindən əldə olunan vəsaitlər büdcə kəsirinin qarşılanmasına yönəldiləcək.

Azərbaycan hökuməti Sahibkarlığa Kömək Milli Fonduna əlavə vəsaitlər yönəltməyi planlaşdırır.

Fevral ayının əvvəllərindən etibarən dövlət istiqrazlarının yerləşdirilməsinə başlanacaq.

Fevralın 11-dən 13-dək Milanda, 16-dan 19-dək isə Tehranda keçiriləcək beynəlxalq turizm sərgilərində Azərbaycanın da turizm potensialı nümayiş olunacaq.

Azərbaycan-Rusiya sərhədindəki dəmiryol gömrük keçid məntəqəsində yük vaqonlarının dayandırılmadan yoxlanılması üçün xüsusi avadanlıqdan istifadə olunacaq.

# İllik icmal çap olunub

Milli vergi sisteminin qabaqcıl vergi inzibatçılığına uyğunlaşdırılması məqsədilə Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq təcrübələr və innovasiyalar şöbəsi tərəfindən ötən ildə müxtəlif sahələr üzrə araşdırmalar aparılıb. Həmin materialların əks olunduğu illik icmal artıq işıq üzü görüb.

İcmalda elektron ticarətin vergiyə cəlb olunması, möhür rüsumu, ümumi bəyannamə sisteminə keçid, UBER taksi fəaliyyəti haqqında, elektron qaimə sisteminin tətbiq edilməsi, nağdsız hesablaşmaların stimullaşdırılması və nağd hesablaşmaların məhdudlaşdırılması barədə təkliflərin verilməsi, vergidən yayınma risklərinin qiymətləndirilməsi və nəzarət məqsədləri üçün seçim mexanizmlərinin təkmilləşdirilməsi kimi sahələr yer alıb. Eyni zamanda, icmalda elektron ödəniş sistemlərinin infrastrukturlarından bəhs edilib, elektron pul ödəniş sistemindən, mobil pul kisəsi vasitəsilə məsafədən ödəniş etmə, barmaq və səslə ödənişlər barədə məlumat verilib. Vergi ödəyicilərinə xidmətin təkmilləşdirilməsi, vergilərin müxtəlif vasitələrlə ödənilməsi metodlarının da yer aldığı icmalda qeyd edilir ki, bu sahədə Çin, Rumıniya, Macarıstan və digər ölkələrin təcrübəsindən yararlanmaqla vergilər, əsasən, özünəxidmət terminalları vasitəsilə ödənilir. Yaponiya təcrübəsinə uyğun olaraq isə vergi ödənişlərini istənilən marketdən ödəmək mümkündür. Bunun üçün vergi ödəyicisi internet üzərindən qeydiyyat məlumatlarını doldurduqdan sonra üzərində bar-kod olan sənədi təqdim edir və ödənişi həyata keçirir.

İcmalda, həmçinin, MDB məkanında bəzi vergi orqanlarının təşkilati strukturu barədə də məlumat verilir, Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti - TAIEX çərçivəsində keçirilən tədbirlərdən də bəhs edilir. Bunlarla yanaşı, siyahıya alınmış əmlakın e-hərraclar vasitəsilə satılması, vergi bəyannamələrinin optimallaşdırılması, özəl vergi məsləhətçiləri institutunun yaradılması, vergi orqanlarında tədris və təlim prosesinin təkmilləşdirilməsi, beynəlxalq təcrübədə vergidən yayınmanın tərkibi, vergi ödəyicilərinə qarşı qanunsuz hərəkətlərin qarşısının alınması mexanizmləri, operativ vergi nəzarəti məsələləri üzrə beynəlxalq təcrübə, kommersiya hüquqi şəxslərin benefisiar mülkiyyətçiləri barədə məlumatların göstərilməsi və ictimaiyyətə açıqlığı barədə məsələlərə də yer verilib.

**AYTƏN**

# Lisenziyanın yenidən rəsmiləşdirilməsi və bərpasında dövlət rüsumunun ləğvi

«Dövlət rüsumu haqqında» Qanunda edilmiş son dəyişikliklərə əsasən, lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinə görə dövlət rüsumunun ödənilməsindən azadolmalar və ödənilməsinin xüsusiyyətlərindəki dəyişikliklərə bağlı bu fəaliyyət yalnız Bakı şəhərində həyata keçirildikdə, habelə eyni vaxtda həm Bakı şəhərində, həm də Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə həmin fəaliyyət növü üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir.

Qanunun 23.2-ci maddəsinə görə, lisenziyalaşdırılan sahibkarlıq fəaliyyəti yalnız Azərbaycan Respublikasının regionlarında həyata keçirildikdə, həmin fəaliyyət növü üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumunun 50 faizi (regional televiziya yayımı və regional radio yayımı istisna olmaqla) ödənilir. Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin bir neçə alt növünün eyni vaxtda həyata keçirilməsi üçün müraciət edildikdə, həmin alt növlərdən biri üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir. Bu zaman həmin alt növlər üçün müəyyən edilmiş rüsumlardan ən yüksək olanı ödənilir. Lisenziyalaşdırılan sahibkarlıq fəaliyyətinin müvafiq növü üzrə bir və ya bir neçə iş və xidmətlərin həyata keçirilməsi üçün müraciət edildikdə, iş və xidmətlərin sayından asılı olmayaraq, həmin fəaliyyət növü üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumu ödənilir.

Lisenziya verildikdən sonra lisenziya sahibi lisenziyada göstərilən fəaliyyət növünü başqa obyektlərdə də həyata keçirmək və ya lisenziyanın əlavəsində göstərilməyən iş və xidmətlərlə məşğul olmaq üçün lisenziya əlavəsinin alınması məqsədilə müraciət etdikdə, obyektlərin və ya iş və xidmətlərin sayından asılı olmayaraq, müvafiq fəaliyyət növünə lisenziya verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət rüsumunun 50 faizi ödənilir. Bu zaman bu Qanunun 23.3-cü maddəsinin müddəaları tətbiq olunur. Qanunun 23.5. maddəsinə görə isə lisenziyanın yenidən rəsmiləşdirilməsi və bərpası üçün dövlət rüsumu ödənilmir.

Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva bildirmişdir ki, yeni qaydalar Azərbaycan Respublikası ərazisində sahibkarlığın inkişafının stimullaşdırılmasına, əlverişli biznes mühitinin təmin olunmasına, lisenziya verilməsi prosedurlarının sadələşdirilməsinə və şəffaflığının təmin edilməsinə istiqamətlənmişdir. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli fərmanı ilə təsdiq edilmiş «Lisenziyalaşdırma Qaydası»na əsasən, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi lisenziyalaşdırma sahəsində xüsusi səlahiyyətli orqan kimi müəyyən edilmişdir. Bundan əvvəl 59 fəaliyyət növü ilə məşğul olmaq üçün lisenziya alınması tələb olunurdusa, «Lisenziyalaşdırma Qaydası»na əsasən, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 37-yə endirilmişdir. Bununla yanaşı, dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar fəaliyyət növləri istisna olmaqla, sahibkarlıq fəaliyyətinin lisenziya tələb olunan bütün növləri üzrə lisenziyaların verilməsi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin səlahiyyətinə aid edilmişdir.

«Lisenziyalaşdırma Qaydası»na əsasən, İqtisadiyyat Nazirliyi lisenziya tələb olunan bütün digər fəaliyyət növləri üzrə lisenziyaları «ASAN xidmət» mərkəzlərində, habelə «Elektron lisenziya» portalı vasitəsilə verir.

S.Musayeva onu da qeyd etmişdir ki, lisenziyaların müddətsiz verilməsi, lisenziya almaq üçün tələb olunan sənədlərin sayının azaldılması, Azərbaycan Respublikasının regionlarında həyata keçirilən fəaliyyət növləri üzrə dövlət rüsumunun alınması üçün ödənilən rüsumlarda güzəştlərin nəzərdə tutulması sahibkarlığın inkişafına və əlverişli biznes mühitinin təmin olunmasına xidmət edir.

İqtisadçı ekspert Vüqar Bayramov bildirmişdir ki, yeni qaydalar birmənalı şəkildə sahibkarların xərclərinin azalmasına səbəb olacaq: «Mövcud qaydalara görə, lisenziyalar müddətsiz veriləcək. Yəni sahibkar bir dəfə lisenziya alacaq və yalnız bir dəfə ödəniş edəcək. Əvvəlki qaydalara görə isə sahibkarlar hər 5 ildən bir lisenziya almalı və ödəniş etməli olurdular. Lisenziyaların verilməsinin asanlaşdırılması və elektronlaşdırılması sahibkarların xərcini kəskin azaldacaq. Elektron lisenziya portalı vasitəsilə sahibkarlar heç bir bürokratik baryer olmadan lisenziya ilə bağlı müraciət edə biləcəklər».

V.Bayramov onu da əlavə etmişdir ki, lisenziyaların Bakı şəhəri ilə yanaşı, rayonlarda da verilməsi regionlarda fəaliyyət göstərən sahibkarlara daha aşağı xərclə lisenziyaya sahib olmaq imkanı yaradacaq.

**Fəxriyyə İKRAMQIZI**

# İnventarizasiya qaydalarında dəyişikliklər

Azərbaycan Respublikasının Nazirlər Kabineti vergi öhdəliklərinin tam və vaxtında yerinə yetirilməsinin təmin olunması məqsədilə «Səyyar vergi yoxlaması zamanı vergi orqanları tərəfindən inventarizasiyanın aparılması Qaydaları»nda dəyişikliklər edib. Bu, səyyar vergi yoxlaması zamanı vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan əmlakın (yaşayış sahələri, büdcədən maliyyələşən təşkilatlar və bələdiyyələr istisna olmaqla) inventarizasiyanın aparılması qaydalarını müəyyən edir. Vergi ödəyicisinin əmlakı dedikdə, Vergi Məcəlləsinə müvafiq olaraq hər hansı daşınan və daşınmaz əmlak, o cümlədən qeyri-maddi aktivlər və pul vəsaitləri nəzərdə tutulur.

İndiyə qədər səyyar vergi yoxlaması zamanı Vergilər Nazirliyinin qərarı ilə vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən bilərəkdən hesabat sənədlərinin aparılmaması aşkar edildikdə, vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydalara uyğun olaraq hesabat sənədlərinin aparılmaması aşkar edildikdə və bununla əlaqədar vergi orqanının xəbərdarlığından sonra yol verilmiş dəqiqsizliklər aradan qaldırılmadıqda, habelə hesabat müəyyən edilmiş qaydalara uyğun olaraq aparılmadıqda və vergi ödəyicisində səyyar vergi yoxlaması zamanı aksiz markaları ilə markalanmalı olan, lakin markalanmamış mallar aşkar edildikdə inventarizasiya aparılırdı.

Dəyişikliyə əsasən, bundan sonra vergi ödəyicisində sonuncu vergi yoxlaması zamanı deyil, ümumiyyətlə, vergi yoxlaması zamanı vergi ödəyicisi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydalara uyğun olaraq hesabat sənədlərinin aparılmaması aşkar edildikdə və bununla əlaqədar vergi orqanının xəbərdarlığından sonra yol verilmiş dəqiqsizliklər aradan qaldırılmadıqda və hesabat müəyyən edilmiş qaydalara uyğun aparılmadıqda Vergilər Nazirliyinin qərarı ilə inventarizasiya aparılacaq.

Digər dəyişikliyə əsasən, vergi ödəyicisində əmlak vergisinin hesablanmasının və ödənilməsinin düzgünlüyü yoxlanıldıqda da Vergilər Nazirliyinin qərarı ilə inventarizasiya aparılacaq.

Qeyd edək ki, inventarizasiyanın əsas məqsədi vergitutmadan gizlədilmiş (yayındırılmış) obyektlərin, mal-material qiymətlilərinin və əmlakın faktiki mövcudluğunun aşkar edilməsi, faktiki mövcud əmlakın və digər qiymətlilərin mühasibat uçotunun məlumatları ilə müqayisə olunması, öhdəliklərin uçotda tam əks etdirilməsinin yoxlanılması, sahibkarlıq fəaliyyətində gəlir (mənfəət) götürmək üçün istifadə olunan daşınan və daşınmaz əmlakın, o cümlədən qeyri-maddi aktivlərin və pul vəsaitlərinin vergitutma obyekti kimi vergi uçotundan yayındırılması hallarının aşkar edilməsi və aradan qaldırılması, vergitutmadan gizlədilmiş mal-material qiymətlilərinin bazar qiymətləri nəzərə alınaraq ödənilməli olan vergi məbləğini müəyyən etməkdir.

**F.İKRAMQIZI**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# İllik maliyyə hesabatlarının auditini aparan kənar (müstəqil) auditorun məsuliyyəti

Müəssisə rəhbərləri və ya mülkiyyətçilər illik maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılması məqsədilə kənar auditorlar dəvət edərkən göstəriləcək auditor xidməti barəsində auditorlarla əvvəlcədən şərtləşməli olur və bu şərtləşmənin davamı olaraq müqavilə bağlayırlar. Müşahidələr onu deməyə əsas verir ki, bəzi müəssisə rəhbərləri bağlanılan auditor müqaviləsində, əsasən, xidmətin məzmunu (adı) kimi konkret dövr üzrə maliyyə hesabatlarının auditinin aparılmasını göstərməklə kifayətlənirlər, lakin müqavilələrdə auditorun öhdəlikləri və vəzifələri üzrə ciddi müddəaların olmasına əhəmiyyət vermirlər.

Məsələn, auditor göstərdiyi xidmət sahəsində qəbul edilmiş normativ hüquqi aktların, standartların və qaydaların tələblərini pozduqda, yoxlama apardığı mühasibat (maliyyə) və vergi hesabatlarında təhrif olunmuş məlumatları və səhvləri aşkar edə bilmədikdə, həmin səhv və təhriflərin aradan qaldırılması üçün düzgün tövsiyələr vermədikdə, məxfilik prinsipini pozduqda, keyfiyyətsiz xidmət göstərdikdə və digər neqativ hallara yol verdikdə auditorla sifarişçi arasında mübahisəli məsələlər ortaya çıxa bilər. Bəzi müəssisə rəhbərləri düşünə bilərlər ki, belə mübahisələrə əhəmiyyət vermək lazım deyil və ya hər bir halda auditor mübahisələri öz xeyrinə həll edə biləcək. Amma auditorun qanunvericiliklə nəzərdə tutulan məsuliyyəti barədə məlumatı olan sifarişçi təşkilatlar auditorla bağlanılan müqavilədə hər iki tərəfin məsuliyyətini ciddi şəkildə müəyyən edən maddələrə daha çox diqqət yetirirlər.

Eyni zamanda, müşahidə aparsaq görərik ki, maliyyə hesabatlarının auditi aparılan əksər müəssisələrin fəaliyyətinə auditorlar tərəfindən müsbət və ya şərti müsbət rəy verilir. Çox nadir hallarda mənfi rəy verilən və ya rəydən imtina olunan hallara rast gəlmək olar. Yəni auditor əksər hallarda öz rəyində əhəmiyyətli hesab edilməyən çatışmazlıqlar istisna olmaqla, müəssisənin maliyyə hesabatlarının göstəricilərini düzgün və ədalətli hesab edir. Maliyyə hesabatlarına auditor tərəfindən verilən müsbət rəy həmin maliyyə hesabatlarından istifadə edənləri (mülkiyyətçiləri və ya səhmdarları, dövlət orqanlarını, rəhbər və digər vəzifəli şəxsləri, kreditor təşkilatlarını) əmin edir ki, onlara təqdim olunan maliyyə hesabatlarında əks etdirilən göstəricilər tam, düzgün və şəffafdır. Burada auditorun məsuliyyəti məsələsi qaçılmazdır. Çünki auditor öz hesabatında maliyyə hesabatları üzrə əks etdirdiyi rəy ifadəsinə görə məsuliyyət daşıyır. Auditor təsərrüfat subyektlərində auditor xidmətinin təşkili üçün yoxlamanın məzmununu, aparılması müddətlərini, ödəniş məbləğini və qaydasını, eləcə də tərəflərin məsuliyyətini nəzərdə tutan müqavilə bağlamalıdır. Müqavilədə nəzərdə tutulan məsuliyyət müddəaları da auditorun qanunla nəzərdə tutulan vəzifələrinə əsaslanmalıdır.

Məsələn, auditor auditin aparılmasında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə hökmən riayət etməlidir, auditi keyfiyyətli həyata keçirməlidir, auditin aparılmasında iştirakının qeyri-mümkünlüyü barədə dərhal sifarişçiyə (səlahiyyətli dövlət orqanına) xəbər verməlidir, sifarişçinin mühasibat uçotunun və hesabatının vəziyyətini, düzgünlüyünü, qüvvədə olan qanunlara və normativ aktlara uyğunluğunu yoxlamalıdır, auditin aparılması zamanı aşkar edilmiş bütün pozuntular, mühasibat uçotunun aparılması və hesabatların tərtibi ilə bağlı nöqsanlar haqqında sifarişçinin rəhbərliyinə məlumat verməlidir, sifarişçinin tələbi ilə aparılan audit zamanı əldə olunan məlumatı (məhkəmə orqanlarının tələb etdiyi hallar və «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununa əsasən təqdim edilməli məlumatlar istisna olmaqla) məxfi saxlamalıdır, yoxlama gedişində alınmış və ya tərtib edilmiş sənədlərin qorunub saxlanmasını təmin etməlidir, təsərrüfat subyektinin tələbi ilə ona auditin aparılmasına dair qanunvericiliyin tələbləri, tərəflərin hüquq və vəzifələri, habelə auditorun rəyində olan irad və nəticələr üçün əsas olan normativ aktlar barədə ətraflı məlumatlar verməlidir, «Cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tələblərinə riayət etməli, bu sahədə qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri həyata keçirməlidir.

«Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinə görə, auditorlar və auditor təşkilatları öz vəzifələrini lazımınca yerinə yetirmədikdə qanunvericiliyə və sifarişçi ilə bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq, əmlak məsuliyyətinə cəlb edilə bilərlər. Yəni göstərdiyi xidmət nəticəsində sifarişçi müəssisəyə (auditin subyektinə) dəyən zərərə görə auditorun məsuliyyəti yarana bilər və belə halda da sifarişçi müəssisəyə vurulan zərərin ödənilməsi barədə auditorun öhdəliyi ortaya qoyula bilər.

Məsələn, bəzən keyfiyyətsiz aparılan auditin nəticəsi olaraq, auditor tərəfindən sifarişçiyə təqdim olunan auditor hesabatında əks etdirilən rəy (fikir) şəffaflığa söykənməyə bilər. Müsbət rəy ifadəsi əks etdirilən auditor hesabatı almış müəssisədə digər yoxlama və nəzarət funksiyasını həyata keçirən dövlət orqanları tərəfindən yoxlanılan dövr üzrə nəticələr fərqli olarsa, burada auditorun məsuliyyəti sifarişçi tərəfindən önə çəkilə bilər. Yaxud vergilərin düzgün hesablanması və büdcəyə ödənilməli olan verginin müəyyən edilməsi tapşırığı üzrə müəssisəyə cəlb olunan auditorun hər hansı səhv hesablamalarına görə ziyan çəkmiş müəssisənin rəhbərliyi həmin auditora qarşı iddia qaldıra bilər.

Bütün bunları nəzərə alaraq, müəssisəyə dəvət olunan kənar auditorla bağlanılan auditor xidməti haqqında müqavilədə auditorun məsuliyyətini müəyyənləşdirən məzmunlara bir daha diqqət yetirilməli və bu məsələdə daha diqqətli olmaq tövsiyə edilir.

# Torpaqların Elektron Kadastr Uçotu Sistemi yaradılır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda torpaq fondunun dəqiq uçotunun aparılması, vaxtilə verilmiş torpaq sahələri üzərindəki uyğunsuzluqların aradan qaldırılması ilə bağlı tapşırıqlar vermişdir. Bu tapşırıqların icrası istiqamətində Əmlak Məsələləri Dövlət Komitəsi artıq bir sıra tədbirlər həyata keçirir. Ölkədə ilk dəfə olaraq Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması işinə başlanılıb.



Komitə tərəfindən sistemin yaradılması istiqamətində görülən işlərlə bağlı təqdimat mərasimində Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin rəisi Ramiz Quliyev Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması layihəsi, bununla bağlı yerlərdə aparılan çöl-ölçmə işləri barədə məlumat verib. Torpaqların texniki, kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi, qiymətləndirilməsi, faktiki və sənəd uyğunsuzluqlarının aradan qaldırılması və yeni sistemin ölkə iqtisadiyyatına, eləcə də kənd təsərrüfatına səmərəsi ictimaiyyət təmsilçilərinə izah edilib.

Bildirilib ki, torpaq tədqiqatı, torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi ilə bağlı tədbirlər görülür. Respublikanın 4 milyon hektar ərazisini əhatə edən ortofotomaterialların rəqəmsallaşdırılması bir ay ərzində yekunlaşacaqdır. Artıq böyük əraziləri özündə cəmləşdirən sahələrdə torpaq tədqiqatı, örüş və biçənək sahələrinin tədqiqi aparılır, rayonların rəqəmsal torpaq xəritələri tərtib edilir. Torpaq uçotu işləri yekunlaşmış Bakı, Sumqayıt, Gəncə şəhərlərinin bələdiyyə xəritələrinin tərtibinə başlanılıb. Hazırda Şəki rayonunda icra olunan kadastr layihəsi bu ilin birinci yarımilliyində yekunlaşacaq. Ölkənin 53 rayon mərkəzinin ərazilərinin də torpaq uçotu işinə başlanılıb. Layihə çərçivəsində qarşıdakı 2 il ərzində daha 130.000 hektar ərazidəki torpaqlar və onlar üzərindəki daşınmaz əmlaklar barəsində müfəssəl kadastr işi yekunlaşdırılacaq. Bu işlərlə yanaşı, kənd təsərrüfatı təyinatlı torpaqlarda da uçot işinə başlanılıb.

Kadastr fəaliyyəti ilə bağlı qarşıya qoyulan vəzifə 2019-cu ilin sonunadək ölkə ərazisindəki bütün torpaqların elektron kadastr uçotu sistemini yaratmaq, pay torpaqlarının kadastr göstəriciləri ilə onların yerdəki faktiki kadastr göstəriciləri arasındakı uyğunsuzluqların aradan qaldırılmasına nail olmaqdır. Ötən ildən başlanılmış uçot sisteminin proqram təminatının yaradılması bu il yekunlaşdırılacaq. Torpaqların Elektron Kadastr Uçotu Sisteminin yaradılması nəticəsində respublikanın torpaq fondunun təyinatı, istifadə növü, kəmiyyət və keyfiyyət göstəriciləri üzrə dəqiq və müfəssəl kadastr uçotu təmin olunacaq.

Təqdimat mərasimində qeyd edilib ki, torpaq fondunun dəqiq uçotu nəticəsində ölkənin ərzaq təhlükəsizliyi məqsədilə kənd təsərrüfatı dövriyyəsinə cəlb etmək üçün yeni ərazilər müəyyənləşdiriləcək. Respublikanın torpaq ehtiyatlarının elmi əsaslarla idarə edilməsi, onların münbitliyinin qorunması, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalına əlverişli şərait yaranacaqdır. Torpaq ehtiyatlarının istifadəsinə dövlət nəzarəti güclənəcək, idarəçiliyin iqtisadi mexanizmlərinin təkmilləşdirilməsi üçün geniş imkanlar yaranacaqdır. Dəqiq torpaq kadastrı məlumatları əsasında kənd təsərrüfatı istehsalatının regionlar üzrə ixtisaslaşdırılmasına dair daha düzgün qərarların verilməsi də mümkün olacaqdır.

*Torpaq fondunun dəqiq uçotu nəticəsində ölkənin ərzaq təhlükəsizliyi məqsədilə kənd təsərrüfatı dövriyyəsinə cəlb etmək üçün yeni ərazilər müəyyənləşdiriləcək*

**Fəxriyyə İKRAMQIZI**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Elvin Zamir oğlu Vəliyev bir sıra ərzaq və qeyri-ərzaq, məişət mallarının satışı və müxtəlif xidmətlərin göstərilməsi üzrə sahibkarlıq fəaliyyəti göstərirdi. Əvvəlcə «Flamingo-2012» MMC-ni yaratdı və qısa müddət ərzində vergi qanunsuzluqlarına yol verdiyi məlum oldu. «Flamingo-2012» MMC-də 26319,89 manat məbləğində verginin dövlət büdcəsinə ödənilmədiyi aşkar edildi və E.Vəliyevin Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi açıldı.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılan araşdırmalar nəticəsində məlum oldu ki, E.Vəliyevin cinayətləri bununla da bitməyib, onun rəhbərlik etdiyi «Amigo-2012» MMC-də də 15218,74 manat məbləğində vergi dövlət büdcəsindən yayındırılıb. Bu faktla da bağlı cinayət işi açıldı. Ancaq üzdəniraq sahibkarın macərası bununla da başa çatmayıb. O, vergi ödəyicisi kimi qeydiyyatdan keçirdiyi «Lyuks-2012» MMC-də 42055,51 manat, «Baku Lyuks Trading» MMC-də isə 29693,51 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayındığı üçün barəsində yeni cinayət işləri açıldı. Sonradan həmin cinayət işləri birləşdirildi və ibtidai istintaqı davam etdirildi.

Elvin Vəliyev təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunaraq barəsində «başqa yerə getməmək haqqında iltizam» qətimkan tədbiri seçildi. İstintaq zamanı sübut olundu ki, o, təsisçisi və direktoru olduğu müəssisələrin nizamnamələrində nəzərdə tutulmuş funksiyaları özü yerinə yetirib, əmlakın, maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini üzərinə götürüb, vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsinə cavabdehlik daşıyıb. Onun bu hərəkətləri Vergi Məcəlləsinin 16.1.1, 16.1.3, 16.1.7, 53.1, 77.3, 78.1, 104, 105.1, 130.1, 130.2, 149, 155, 157.3.2, 159.1, 173, 174, 218, 219, 220.1, 221.2 və 221.3-cü maddələrinin tələblərinin pozulması halı kimi müəyyən edilib.

İş üzrə təqsirləndirilən şəxs qismində dindirilən E.Vəliyev özünü CM-in 213.2.2-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilərək, törətdiyi qanunsuzluqları etiraf edib. Bildirib ki, mənimsədiyi vəsaitləri şəxsi məqsədləri üçün istifadə edib.

Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirilib. Bununla da Elvin Vəliyev Sumqayıt Şəhər Məhkəməsinin hökmü ilə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

vergi təqvimi

| FEVRAL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | | | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

1 fevral – «(10.1)»
16 fevral - «(5)»
22 fevral - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.2», «10.3»

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə) İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə) - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Avropa İttifaqında vergilərin ÜDM-ə nisbəti yüksəlib

Avropa İttifaqının (Aİ) statistika orqanı olan Avrostatın məlumatına görə, 2014-cü ildə Aİ-də vergilərin ümumi daxili məhsula (ÜDM) nisbəti artaraq 40%-ə çatmışdır.

Əvvəlki illərdə olduğu kimi, Avropada ən yüklü vergi rejimi Danimarkaya aiddir: bu ölkədə vergilərin ÜDM-ə nisbəti 50,8% təşkil edir. Sonrakı yerləri Fransa və Belçika (hər ikisi 47,9%), Finlandiya (44%), Avstriya (43,8%), İtaliya və İsveç (hər ikisi 43,7%) tutur. Rumıniya vergi yükünün ÜDM-ə nisbətində sonuncu yerdədir: 27,7%. Bolqarıstan (27,8%), Litva (28%) və Latviyada (29,2%) da vergi yükü daha aşağı səviyyədədir.

Aİ ərazisi boyunca istehsal və ixrac üçün vergilər ÜDM-in 13,6%-ni, gəlirlər, zənginlik və s. üçün cari vergilər isə ÜDM-in 12,8%-ni təşkil edir. Gəlirlər, zənginlik və s. üçün cari vergilər 2007-ci ildən 2010-cu ilədək azalsa da 2011-ci ildə qismən, 2012 və 2013-cü illərdə isə böyük ölçüdə artmışdır. 2014-cü ildə sosial haqların ÜDM-ə nisbəti 0,1% azalaraq 13,4% təşkil etmişdir.

2013-2014-cü illərdə 8 Aİ ölkəsində - Belçika, Bolqarıstan, Çexiya, Lüksemburq, Portuqaliya, Sloveniya, İsveç, Böyük Britaniya Birləşmiş Krallığında vergilərin ÜDM-ə nisbətində azalma müşahidə edilmişdir. Bunlardan başqa, Norveç və İsveçrədə də azalma olmuşdur. Maksimal azalma isə Norveçdə qeydə alınmışdır: 1 faiz bəndi.

Vergilərin ÜDM-ə nisbətində artım isə iyirmi üzv dövlətdə, eləcə də İslandiya və Serbiyada müşahidə edilmişdir. 2013-2014-cü illər üzrə vergi yükünün faiz artımı İslandiyada (2,9 faiz bəndi), Danimarkada (2,75 faiz bəndi), Kiprdə (2,6 faiz bəndi), Maltada (1,4 faiz bəndi) və Serbiyada (1 faiz bəndi) qeydə alınmışdır.



## Xəbər lenti

**Macarıstan**ın dövlət katibinin vergi və yığımlar üzrə müavini Zoltan Pankuşi bəyan etmişdir ki, hökumət OECD-nin vergi rejimini daha proqressiv etmək və dolayı vergiləri genişləndirmək barədə tövsiyələrinə baxmağı istisna edir.

**Avropa Komissiyası** Belçika hökumətindən 35 iri korporasiyadan 700 milyon avro məbləğində vergi tutaraq büdcəyə ödəməsini tələb etmişdir. Komissiyanın rəyinə görə, Belçikanın vergi sistemində qanunsuzluq var, bu sistem sayəsində iri korporasiyalar öz vergi bazalarını 90% azalda bildikləri halda, büdcənin ağırlığı kiçik müəssisələrin üzərinə düşür. Bununla da Avropa Birliyində sağlam rəqabət mühiti pozulmuş olur.

**Yunanıstan** və **Almaniya** vergi orqanları vergidən yayınmaya qarşı yeni təşəbbüs çərçivəsində birgə mübarizə aparacaqlar.

**ABŞ**-da vergi yükünə görə ştatların reytinqi açıqlanıb. Vergi Fondu adlı ictimai təşkilatın hesabatında bildirilir ki, yerli vergi yükünə görə 50 ştat arasında Nyu-York öndədir, bu ştatın sakinləri öz qazanclarının 12,7%-ni bələdiyyə və ştat vergilərinə ödəyirlər.

**İsveçrə** Hernsi, Cersi və Men offşor zonaları, eləcə də İslandiya və Norveçlə vergi məlumatlarının avtomatik mübadiləsinə dair birgə bəyannamə imzalamışdır. Bəyannaməyə əsasən, məlumatların toplanılması 2017-ci, mübadiləsi isə 2018-ci ildən başlayacaq.

**Almaniya**nın maliyyə naziri Volfqanq Şoyble Avropa İttifaqında yeni verginin tətbiq olunması ideyasını irəli sürmüşdür: «Miqrasiya böhranını aradan qaldırmaq üçün milli büdcələrdə və Aİ büdcəsində vəsait olmadığına görə, satılan hər litr benzinə vergi qoya bilərik. Hazırda Şengen sazişi çərçivəsində dövlət sərhədlərinin təhlükəsizliyini təmin etməliyik».

**İngiltərə** və Avropa qanunvericiliyində edilmiş dəyişikliyə görə, bir sıra şirkətlərin benefisiarları ictimaiyyətin ciddi nəzarəti altında fəaliyyət göstərməlidirlər.
Nəzərə alınan səbəblər arasında vergidən yayınma, qanunsuz əldə edilmiş pul vəsaitlərinin «yuyulması» və terrorçu dairələrə dəstək kimi amillər göstərilir.

Xarici ölkələrin təcrübəsi

# Sinqapurun vergi sistemi



*Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin icmalı*

**Mal və xidmətlər vergisi**

Bu vergi Sinqapurda vergiyə cəlb olunan malların və xidmətlərin təqdim edilməsinin və Sinqapura idxalın cəlb edildiyi əlavə dəyər vergisidir.

***Vergi ödəyiciləri***

Kommersiya və ya peşə fəaliyyəti ilə məşğul olan istənilən şəxs vergi ödəyicisi hesab edilir. Qrup şəklində qeydiyyat o halda mümkündür ki, qrup üzvləri arasında əməliyyatlar mal və xidmətlər vergisi məqsədləri üçün nəzərə alınmasın. Mal və xidmətlər vergisi məqsədləri üçün məcburi qeydiyyatdan keçmə üzrə minimum illik dövriyyə 1 milyon SGD-dir (756 min ABŞ dolları).

***Vergiyə cəlb olunan əməliyyatlar***

Mal və xidmətlər vergisi Sinqapurda mal və xidmətlərin vergi ödəyicisi tərəfindən təqdim edilməsi və malların istənilən şəxs tərəfindən Sinqapura idxalından tutulur. Bu vergi növü təqdim edilən malların və xidmətlərin mal və xidmətlər vergisi xaric olmaqla və istənilən digər vergi və rüsumlar daxil olmaqla satış qiymətinə tətbiq edilir. İdxalda mal və xidmətlər vergisi gömrük dəyəri, rüsumlar, komissiyalar və digər əlavə ödənişlərin cəminə tətbiq edilir. Rezident turistlərə Sinqapura gətirilən yeni mal nümunələri, suvenirlər, hədiyyələr və hazır ərzaq məhsullarına görə idxalda bu vergi növü üzrə vergi güzəşti hüququ verilir. Sinqapurdan kənarda 48 saatdan artıq qalan rezident turistlərə bu güzəştin məbləği 600 SGD (453 dollar), 48 saatdan az qalan rezident turistlərə isə 150 SGD (113 dollar) təşkil edir. Malın qiyməti mal və xidmətlər vergisi güzəşti məbləğindən artıq olduğu hallarda malın qiyməti ilə güzəşt məbləği arasındakı fərq vergiyə cəlb edilir.

***Azadolmalar***

Aşağıdakı əməliyyatlar mal və xidmətlər vergisinə şamil edilmir:

- «0» dərəcə ilə təqdim edilmə (ixrac, beynəlxalq xidmətlər və müəyyən şərtlərlə trast xidmətləri);
- Mal və xidmətlər vergisindən azad olunmuş şəxslər tərəfindən təqdim edilən mal və xidmətlər, yaşayış əmlaklarının satışı və ya icarəsi və müəyyən maliyyə xidmətləri.

«0» dərəcə ilə təqdimetməyə aid olunan alış zamanı ödənilən mal və xidmətlər vergisini əvəzləşdirmək hüququ olsa da, vergidən azad edilən təqdimetməyə aid olan alış zamanı ödənilən mal və xidmətlər vergisi əvəzləşdirilə bilməz. Mal və xidmətlər vergisinin dərəcəsi 7%-dir.

***Qeyri-rezidentlər***

Qeyri-rezidentlər üçün qeydiyyat şərtləri rezidentlərlə eynidir. Xarici müəssisələr o zaman qeydiyyatdan keçməlidirlər ki, həyata keçirdikləri vergiyə cəlb olunan əməliyyatlar Sinqapurda qeydiyyat üçün müəyyənləşdirilmiş həddi keçmiş olsun. Təqdimetmə Sinqapurda həyata keçirildikdə vergi tutulan əməliyyatların aparıldığı yer Sinqapur hesab edilir. Sinqapurda alınan malları müəyyən edilən limanlardan ixrac edən turistlərə ödənilmiş mal və xidmətlər vergisinin məbləği qaytarılır.




**Sosial sığorta ödənişləri**

İşəgötürənlər işçilərin əməkhaqlarından Mərkəzi Ehtiyat Fonduna aşağıdakı dərəcələrlə ayırmalar tutmalıdırlar:

| İşçinin yaşı | İşçinin ödənişi (əmək-haqqından, %-lə) | İşəgötürənin ödənişi (əmək-haqqından, %-lə) |
|---|---|---|
| 50-yə qədər | 20 | 17 |
| 51-55 | 19 | 16 |
| 56-60 | 13 | 12 |
| 61-65 | 7,5 | 8,5 |
| 65-dən yuxarı | 5 | 7,5 |

Yuxarıdakı dərəcələr aylıq əməkhaqqı 1500 SGD-dən (~1080 dollar) yuxarı olan işçilərə tətbiq edilir.

Əməkhaqqına işçiyə ödənilən əlavə işə görə ödəniş, güzəşt, nağd mükafatlar, komissiyalar və bonuslar aid edilir. Ayırmaların tətbiq edildiyi maksimal əməkhaqqı bazası 85.000 SGD (~61.200 dollar) təşkil edir. Ayırmalar qanunla müəyyən edilmiş hədlərədək gəlirdən çıxıla bilər. Xarici vətəndaşlar Mərkəzi Ehtiyat Fonduna ayırmalar edə bilməzlər. Özünüməşğulluqdan gəlir əldə edən fiziki şəxslər Mərkəzi Ehtiyat Fonduna ayırmalar etmək məcburiyyətində deyil. Lakin illik gəlirləri 6000 SGD-dən (~4 320 dollar) artıq olan, özünüməşğulluqdan gəlir əldə edən Sinqapur vətəndaşları və daimi rezidentlər, yaşlarından və gəlirlərindən asılı olaraq, maksimum 4200 SGD-dən 5400 SGD-dək (~3024-3888 dollar), 2,33% - 9% arasında məcburi tibbi sığorta ayırmaları ödəməlidirlər.

krossvord



**Yuxarıdan aşağı:** 1.Ongünlük; 2.Ruslarda toy mərasimində verilən dairəvi çörək, adətən, şirin maya ilə hazırlanır və bəzədilir; 3.Musiqi janrı. Psixoloji vəziyyət; 4.ABŞ-da ştat; 5.Azərbaycanın xalq yazıçısı, məşhur dramaturq və kinossenaristin adı. «Uzaq sahillərdə» povestinin həmmüəllifi; 6.İnternatura keçən tibb məzunu; 9.Fransız yazıçı, ədəbiyyatda elmi fantastika janrının görkəmli nümayəndələrindən biri («Kapitan Qrantın uşaqları», «80 gün dünya ətrafında» əsərlərinin müəllifi); 13.Kimyəvi element; 15.Zərif yunlu qoyun növü; 16.Nizamlanmış kəmiyyətlər yığımı; 17.İngilislərdə yüksək təbəqəyə mənsub kişilərə müraciət forması; 18.Radio və televiziyada mətnləri oxuyan; 20.«Söyüdlü arx» romanının müəllifinin adı; 21.«Ögey ana» filminin rejissorunun adı.

**Soldan sağa:** 1.Qlükozanın əvvəlki adı; 5.Rəqəm; 7.Müasir Tunis şəhərinin yaxınlığında xaraba şəhər muzeyi. Eyniadlı qədim imperiyanın paytaxtı; 8.Aralıq dənizində ada; 10.Dünya İqtisadi Forumunun keçirildiyi şəhər; 11.Bitki növü; 12.Çin Xalq Respublikasında türkdilli xalq; 14.Yaponiyada çəkilmiş animasiya filmi; 19.Gürcü əsatir qəhrəmanı; 21.İngiltərə yazıçısı C.K.Roulinqin məşhur romanında baş qəhrəmanın adı; 22.Türk və altay xalq mədəniyyətində bərəkət mərasimi; 23.Müxtəlif sahələr üzrə fəaliyyət göstərən istehsal müəssisələrinin birliyi; 24.Fransada çay; 25.Qərbi Azərbaycanın qədim mahallarından biri.



Müasir Tunis şəhərinin yaxınlığında xaraba şəhər muzeyi. Eyniadlı qədim imperiyanın paytaxtı

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Atabəy; 2.Şturval; 3.Ratin; 4.Nekkar; 5.Kolli; 6.Dollar; 9.Qulu *(Əsgərov)*; 13.İqbo; 15.Kriolit; 16.Skelet; 17.Mikrob; 18.Təkrar; 20.Limon; 21.Qoyya *(Fransisko)*. **Soldan sağa:** 1.Apşeronsk; 5.Kud; 7.Akustika; 8.Alol; 10.Əlvan; 11.Apuliya; 12.Elçin *(Əzizov)*; 14.Bulka; 19.Kolibri; 21.Qaimə; 22.Lama; 23.Kraysler; 24.Ton; 25.Gibraltar.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

## idman

# Paytaxt Bakıda «Gənclik veloyürüşü» keçirilib

Yanvarın 31-də 2 fevral - Azərbaycan Gənclər Günü münasibətilə «İrəli» İctimai Birliyinin təşkilatçılığı ilə «Gənclik veloyürüşü» keçirilib.

Yürüş Azərbaycan Velosiped İdmanı Federasiyasının, «Böyük İpək Yolu» Beynəlxalq Gənclər Birliyinin və Dənizkənarı Bulvar İdarəsinin dəstəyi ilə təşkil olunub.

200-dən artıq peşəkar və həvəskar velosipedçinin qatıldığı yürüşün iştirakçıları arasında gürcüstanlı həvəskar velosipedçi, dünya səyahəti çərçivəsində Azərbaycandan keçən Nodar Beridze də olub.



Yürüş iştirakçıları Dövlət Bayrağı Meydanından start götürərək «Azneft» meydanı-Neftçilər prospekti-Heydər Əliyev Mərkəzi-Səməd Vurğun bağı-Rəşid Behbudov küçəsi-Heydər Əliyev Sarayı-Səməd Vurğun küçəsi-Dəniz vağzalı marşrutu üzrə hərəkət ediblər.

Veloyürüşün məqsədi gənclər arasında sağlam həyat tərzinin təbliği, asudə vaxtın səmərəli təşkili və Azərbaycan Gənclər Gününün əhəmiyyətinin aşılanmasıdır.

**Yanvarın 29-da idmansevərlər dünya səviyyəli azərbaycanlı futbol hakimi Tofiq Bəhramovun ad gününü qeyd etdilər. Əfsanəvi referinin həyatından kiçik xatırlatmalar:**



- Tofiq Bəhramov Nikolay Latışevdən sonra Dünya kubokunun final mərhələsində hakimlik edən ikinci, Avropa kubokunun final oyununu idarə edən birinci sovet hakimi olub.
- 15 il ərzində idarə etdiyi oyunların heç birində referi oyunçuya qırmızı vərəqə göstərməyib.
- İngilis yazıçısı A.Hopkraft özünün ən məşhur «Futbol adamı» kitabını Tofiq Bəhramova həsr edib.
- 1966-cı ildə Dünya çempionatı çərçivəsində keçirilən Almaniya-İngiltərə oyunu Tofiq Bəhramovun adını tarixə yazdırıb. Final oyununda Cefri Hertsin mübahisəli qolunu qeydə alan Bəhramovun bu qərarının doğruluğu illər sonra videogörüntülər sayəsində məlum olub.
- Almaniya-İngiltərə oyunundan sonra həmyerlimiz kraliça II Yelizavetanın şəxsən təqdim etdiyi «Qızıl ilahə» və «Qızıl fit» mükafatlarına layiq görülüb.
- Tofiq Bəhramovun 85 illik yubileyi ərəfəsində İngiltərədə üzərində «Qara geyimdə olan əfsanəvi şəxsiyyəti unutmayacağıq» sözləri yazılan köynəklər satışa çıxarılıb.
- London şəhərindəki futbol muzeyində Tofiq Bəhramovun bürünc heykəlciyi var.

# Avropa kuboku yarışlarında üç medal

Bolqarıstanın paytaxtı Sofiya şəhərində cüdo üzrə Avropa kuboku yarışlarına yekun vurulub. Beynəlxalq turnirdə dünyanın 58 ölkəsi ilə yanaşı, Azərbaycan cüdoçuları da mübarizə aparıblar.



Yarışların ilk günündə idmançılarımız iki medal qazanıblar. Bütün rəqiblərinə qalib gələn Elbrus Zamanov (60 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb, İlkin Babazadə (66 kq) isə bürünc medala sahib olub.

Mötəbər turnirin sonuncu günündə Azərbaycan millisi aktivinə daha bir medal yazdırıb. 90 kiloqram çəki dərəcəsində çıxış edən Tural Səfquliyev rusiyalı Rüstəm Əmirmetov, hollandiyalı Miçel Verhagen və gürcüstanlı Tornike Jugeliyə qalib gələrək yarımfinala yüksəlib. Cüdoçumuz Belarus təmsilçisi İlhar Zhukauya məğlub olsa da, üçüncü yer uğrunda Hollandiya cüdoçusu Daks Beysbruk üzərində qələbə qazanaraq bürünc medal qazanıb.

Beləliklə, cüdo üzrə Azərbaycan milli komandası Avropa kuboku yarışlarında 1 qızıl və 2 bürünc medala sahib olub.

Qeyd edək ki, bu mötəbər yarış Azərbaycan idmanı üçün daha bir əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, beynəlxalq dərəcəli hakimimiz Elmar Babanlı da yarışın hakimləri arasında olub və bir neçə görüşü yüksək səviyyədə idarə edib. E.Babanlı həm də Azərbaycan Cüdo Federasiyasının baş katibidir.

# Güləşçilərimiz ənənəvi beynəlxalq turnirdə

İstanbulda Vehbi Emre və Hamit Kaplanın xatirəsinə həsr olunmuş 34-cü beynəlxalq güləş turniri keçirilib. Ahmet Cömert Spor Salonunda keçirilən turnirdə 13 ölkədən 300-ə yaxın pəhləvan mübarizə aparıb.

Azərbaycan güləşçiləri turniri Kərim Cəfərov (59 kq) və İslambek Dadovun (66 kq) timsalında 2 bürünc medalla tamamlayıblar. Milli komandamızın üzvləri Emin Əhmədov (80 kq) və Orxan Nuriyev (98 kq) isə 5-ci yerlə kifayətləniblər.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakim Vaqif Zeynallı təmsil edib.

## mozaika

camiyyət




# Təcili yardım avtobusu

Avstraliyanın Adelaida ştatındakı Royyal Hospital klinikasının həkimləri dünyada ilk «təcili yardım avtobusu»nun xidmətlərindən istifadə edirlər. Bu qeyri-adi yeniliyin təqdimat mərasimində Adelaidanın yüzlərlə sakini, habelə Avstraliyanın səhiyyə naziri Cek Snellinq iştirak edib.

Uzunluğu 15 metrə yaxın olan avtobus xüsusi avadanlıqla təchiz edilib. Burada eyni vaxtda 12 pasiyentə (6 nəfər əyləşə bilən və daha 6 nəfər uzanıqlı vəziyyətdə xəstəyə) tibbi yardım göstərmək mümkündür. Avtobusun içərisində iki həkim və tibbi heyətin üçüncü üzvü - həm feldşer, həm də sürücü vəzifəsini yerinə yetirən şəxs üçün yerlər nəzərdə tutulub. Müasir tibbi texnika ilə təchiz edilmiş bu nəhəng maşında defibrillyatorlar və mobil USM (ultrasəs müayinəsi) aparatları quraşdırılıb.

Bu avtobus eyni vaxtda zərər çəkmiş çoxsaylı insanlara təxirəsalınmaz tibbi yardım göstərilməsi hallarında: ağır yol-nəqliyyat hadisələri, texnogen qəzalar, o cümlədən kol-koslu və alçaq ağacların çox olduğu ərazilərdə yanğınlar zamanı tətbiq edilmək üçün nəzərdə tutulur. Avstraliyada tez-tez baş verən bu cür yanğınlar çox təhlükəlidir.

Royyal Hospital klinikasının həkimlərinin sözlərinə görə, mühüm idman matçları, konsertlər və minlərlə tamaşaçı cəlb edə bilən digər kütləvi tədbirlər keçirilən günlərdə bu qeyri-adi avtobus stadionların və idman saraylarının yaxınlığında növbə çəkəcək.

tam ciddi

# Qaçqınların bahalı əşyaları müsadirə ediləcək

Danimarka parlamenti uzun sürən məsləhətləşmələrdən sonra ölkəyə gələn qaçqın axınını azaltmaq üçün yeni qanun layihəsini qəbul edib. Layihəyə əsasən, bundan sonra ölkədə sığınacaq tapmaq istəyən xarici vətəndaşların qəbulu və yaşayış şərtləri sərtləşdirilib. Uzun müddətdir ki, ölkədə və xaricdə mübahisəyə səbəb olan qanun layihəsi qaçqınların sahib olduğu 10 min krondan çox (1340 avro) nağd pulun və ya bu məbləğdə qiymətli əşyaların müsadirə edilməsini nəzərdə tutur. Yalnız şəxsi dəyəri olan əşyalar, məsələn, nişan üzükləri müsadirə edilməyəcək. Danimarka hökumətinin planına əsasən, bu yolla alınan vəsait qaçqınların ölkə ərazisində maliyyə xərclərinə yönəldiləcək.



Qanun layihəsi Kraliça II Marqret tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minəcək. Lakin onun bəzi müddəaları ilə əlaqədar yerli hüquq müdafiəçiləri iddia edirlər ki, bu normativ akt Danimarkanın iştirakçısı olduğu insan hüquqlarına dair bir sıra beynəlxalq konvensiyalarla ziddiyyət təşkil edir.

Qeyd edək ki, keçən il Danimarkada sığınacaq verilməsi haqqında 21 min ərizə qeydə alınıb. Son rəy sorğularına əsasən, yerli əhalinin 70 faizi hesab edir ki, immiqrasiya ölkənin əsas problemidir.

tabiat

# Həyəcan zəngi vuruldu

Dünya Səhiyyə Təşkilatı (DST) və onun tərəfdaşları El-Ninyo təbii fenomeninin sağlamlıq üçün təhlükəli fəsadlarının artacağı barədə xəbərdarlıq ediblər. El-Ninyo iqlim fenomeni Sakit okeanın şərq bölgələrində suyun səthinin xeyli - Farengeyt üzrə təqribən 1,3 dərəcə istiləşməsidir. Suyun istiləşməsi bəzi rayonlarda quraqlıq, bəzilərində isə güclü leysanla müşayiət olunur.

DST-nin Fövqəladə hallarda risklərin idarə olunması və humanitar reaksiya tədbirləri üzrə departamentinin direktoru Riçard Brennan deyib: «El-Ninyonun Həbəşistandan tutmuş Haiti və Papua-Yeni Qvineyaya qədər necə ziyan vurduğunu görürük. Düşünürük ki, səhiyyə sahəsində bu fenomenin nəticələri 2016-cı ildə də hiss ediləcək». Onun sözlərinə görə, insanların tələf olmasının və xəstəliklərin qarşısını almaq üçün hökumətlər fövqəladə hallara və onlara reaksiya göstərilməsinə hazırlıq tədbirlərinin gücləndirilməsi üzrə layihələrə sərmayə yatırmalıdırlar.

Məruzədə deyilir ki, Şərqi və Cənubi Afrika, Sakit okean adaları, Cənub-Şərqi Asiya və Mərkəzi Amerika ölkələrinin çoxunda El-Ninyo fenomeni ciddi quraqlığa, daşqınlara, leysanlara və temperaturun yüksəlməsinə gətirib çıxarıb ki, bu da yoluxucu xəstəlik ocaqlarının yaranması, qida və içməli su çatışmazlığı və səhiyyə sistemində pozuntular ilə nəticələnib.

El-Ninyonun sağlamlıq üçün ciddi fəsadları inkişaf etməkdə olan ölkələrdə daha çox təzahür edir. BMT-nin məlumatına görə, bu il El-Ninyodan təqribən 60 milyon adam zərər çəkə bilər. El-Ninyo ilə üzləşən 7 ölkə hazırda maliyyə yardımı göstərilməsi çağırışı ilə dünya birliyinə müraciət edib. Ekspertlər hesablayıblar ki, Efiopiya, Lesoto, Keniya, Papua-Yeni Qvineya, Somali, Tanzaniya və Uqandada səhiyyə sektorlarının dəstəklənməsinə 76 milyon ABŞ dolları tələb olunur.




sağlamlıq

# Ana südündən antibiotik

Britaniyanın Milli Fizika Laboratoriyasının əməkdaşları ana südündən yeni antibiotik hazırlayıblar. Bu preparat başqa dərmanların təsirinə davamlıdır.

Alimlər ana südündə olan zülalın orqanizmin hüceyrələrinə ziyan vurmadan xəstəlik törədən bakteriya və viruslara dərhal hücum etməyi bacardığını aşkar ediblər. Ana südü hətta bağırsaq çöpünü və sarı stafilokoku da məhv edir.

Bundan əvvəl Dünya Səhiyyə Təşkilatının həkimləri bildiriblər ki, dünyada antibiotiklərdən ehtiyatsız istifadəyə görə ildə on milyon insan həyatını itirə bilər. Həkim məsləhətindən istifadə etmədən və antibiotiklərin dozasının artırılması orqanizm üçün ciddi təhlükə yaradır.

**Müdriklər deyib ki...**

*«Həqiqət Günəş kimidir. Ondan hansısa müddətə gizlənə bilərsən, ancaq onu o heç yerə azdıra bilməzsən».*

*Elvis Presli (1935-1977)*

